

"Azərbaycan Qoşulmama Hərəkatına yeni nəfəs verib, onu daha da canlandırıb"

4

# Qüdrətli Azərbaycan və Türkiyə iki xalqın qardaşlıq hekayəsidir



Oktyabrın 29-da Türkiyə Respublikasının milli bayramı - Respublika Günü qeyd olunur. Artıq 98 ildir ki, qəhrəman türk xalqı bu günü böyük təntənə ilə qeyd edir və Cümhuriyyətin 100 iliyinə böyük inamla hazırlıq işləri görülür.

5



Səs
№ 198 (6398) 29 oktyabr 2021-ci il. Qiyməti 40 qəpik

# ZƏNGƏZUR DƏHLİZİ:

## Ermənistanın daralan vaxtı



İki gün öncə Türk dünyasının iki lideri - Azərbaycan və Türkiyə prezidentləri Zəngəzur dəhlizinin bir hissəsinin - Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun təməlini qoydular. Bütün dünya Azərbaycanın bir il bundan əvvəl işğaldan azad etdiyi ərazilərdə...

3

## İnsanlığa qarşı amansız ERMƏNİ TERRORLARI



9

## Hitler Covid-19-a qarşı "peyvənd olunubmuş"...



Hollandiyada qərbə hadisə baş verib. SİA-ya daxil olan məlumata görə, bu ölkədə Adolf Hitlerin adına saxta, lakin portal sistemindən...

16

## Xankəndinin taleyi həll olunur - Ermənistan geri addım atır






## Küçə mədəniyyəti, yoxsa mədəniyyətsizliyi?

ARAŞDIRMA

11



7

## "Təhsilin müvafiq pillələri üzrə qapadılmaya gedilə bilər"

"Hal-hazırkı durumda yoluxma faktı gündən-günə artır. Yəni, hər gün bir qədər artım müşahidə edirik və bunun nəticəsi olaraq, əlbəttə müvafiq qabaqlayıcı...



## Yevgeni Mixaylov: Azərbaycan-Ermənistan arasında 2 yekun müqavilə imzalanacaq

15

Politoloq: "ABŞ və Fransa il boyu Qarabağın statusu məsələsini çox fəal şəkildə təbliğ edirlər. Amma bir daha...



## Sosial şəbəkələrdə tanışlığa CƏMİYYƏTİN BAXIŞI

SORĞU

6

# “Bizim xalqlarımızı ortaq köklər bağlayır”



## Prezident İlham Əliyev Qırğız Respublikasının Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Qırğız Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kayrat Osmonaliyevin etimadnaməsini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısını salamlayan səfir Kayrat Osmonaliyev bildirib ki, Qırğızıstan Azərbaycanın çətin günlərində həmişə bu çətinliklərə şərik olub, Azərbaycanın uğurlarına və nailiyyətlərinə sevinib: Zatialiləri, cənab Prezident, Qırğız Respublikasının Azərbaycan Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməyimlə əlaqədar etimadnaməmi Sizə təqdim etməyi özümə şərəf sayıram. Mənə epoxal əhəmiyyətli hadisələr dövründə Bakıya gəlmək şərəfi nəsib olub. Bu hadisələr nəticəsində tarixi ədalət və tarixi həqiqət zəfər çaldı. Qırğız Respublikası, Qırğızıstan Azərbaycanın çətin günlərində həmişə bu çətinliklərə şərik olub, Azərbaycanın uğurlarına və nailiyyətlərinə sevinib.

İcazə verin, Qırğız Respublikasının Prezidenti Sadır Nurqojoyeviç Japarovun səmimi salamlarını çatdırım, ötən il və bu il pandemiya dövründə göstərdiyiniz köməyə görə təşəkkürünü bildirim. Sadır Nurqojoyeviç Sizi Qırğızıstana dövlət səfərinə dəvət edir və Sizinlə ən yaxın vaxtda görüşməyə çox şad olacaq. Təşəkkür edirəm.

Səfir Kayrat Osmonaliyev etimadnaməsini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təqdim etdi.

Prezident İlham Əliyev: Sizi Azərbaycanda salamlayıram. İşinizin uğurlu olmasını, vaxtınızı yaxşı keçirməyi arzu edirəm. Mən də Qırğız Respublikasının Prezidentinə salamlarımı və ən xoş arzularımı çatdırmağınızı xahiş edirəm və onu da özü üçün münasib olan istənilən vaxtda Azərbaycana dəvət etmək istəyirəm.

Bizim xalqlarımızı ortaq köklər bağlayır və Türk Şurası çərçivəsində fəal qarşılıqlı əlaqə saxlayırıq. Bildiyiniz kimi, Azərbaycanın rəhbərlik etdiyi Türk Şurasının dövlət başçılarının yaxın bir ayda növbəti Zirvə görüşü keçiriləcək. Biz sədrliyi Türkiyəyə ötürəcəyik. Əlbəttə, bu sammit ölkələrimizi daha da yaxınlaşdıracaq. Türkdilli dövlətlər arasında qarşılıqlı münasibətlər və əməkdaşlıq çərçivəsində həllini tələb edən məsələlər çoxdur. Bildiyiniz kimi, Azərbaycan bizim Şuranın üzvləri olan ölkələrin yaxınlaşması üçün həmişə böyük səy göstərib.



İkitərəfli münasibətlərə gəldikdə, biz əlaqələrin intensivləşəcəyinə ümid edirik. Hesab edirəm ki, mövcud potensial ötən illərdə tam həcmdə reallaşdırılmayıb. Buna görə əlbəttə ki, iqtisadi-ticari sahəyə diqqət yetirmək lazımdır, bu sahədə əmtəə dövriyyəsini artıra bilərik. Bundan əlavə, bildiyiniz kimi, Azərbaycan ölkənin hüdudlarından kənarda fəal sərmayə qoyur. Biz Qırğızıstanda investisiya layihələrini ətraflı müzakirə edə bilərik və əlbəttə, beynəlxalq arenada qarşılıqlı dəstək ölkələrimizi həmişə yaxınlaşdırıb. Əminəm ki, biz gələcəkdə də BMT məkanında, İslam Əməkdaşlıq Təşkilatı və əlbəttə, Türk Şurası, MDB və digər təşkilatlar çərçivəsində bir-birimizi dəstəkləyəcəyik. İkinci Qarabağ müharibəsi dövründə biz Qırğızıstan xalqının dəstəyini hiss edirdik. Vətəndaşlardan çoxlu müraciətlər olurdu, həmrəylik hissləri bildirilirdi, biz bunu çox yüksək qiymətləndiririk. Hazırda Azərbaycanın dağıdılmış ərazilərinin bərpası dövrüdür və biz keçmiş məcburi köçkünləri maksimum qısa müddətdə öz əzəli torpaqlarına qaytarmaq üçün fəal iş aparırıq.

Azərbaycanda vaxtınızın yaxşı keçməsini arzu edirəm. Əminəm ki, bizim ölkəmizlə yaxından tanış olacaqsınız. Bildiyimə görə, siz artıq işğaldan azad edilmiş ərazilərdə olmusunuz, lakin qarşıda hələ yeni səfərlər olacaq. Özü də təkcə oraya yox, Bakıdan digər istiqamətlərə də. Buna görə düşünürəm ki, ölkəmiz haqqında tam təsəvvürünüz olacaq və bu, işinizdə sizə kömək edəcək. Sizə uğurlar arzu edirəm.

Səfir Kayrat Osmonaliyev: Cənab Prezident, ilk növbədə, Qırğızıstanın ünvanına səmimi sözlərinizə görə sağ olun. Bizim dövlətlərarası münasibətlərin təməli Sizin atanız, beynəlxalq miqyaslı görkəmli xadim tərəfindən qoyulub. Onun xatirəsini qırğızıstanlılar daim ehtiramla yad edirlər. Gələn il biz ölkələrimiz arasında dostluq və əməkdaşlıq haqqında müqavilənin imzalanmasının 25-ci ildönümünü, 2023-cü ildə isə diplomatik münasibətlər yaradılmasının 30 illiyini qeyd edəcəyik.

Siz düzgün olaraq deyirsiniz ki, biz beynəlxalq məkanda, BMT, Şanxay Əməkdaşlıq Təşkilatı, MDB, ATƏT, Qoşulmama Hərəkatı çərçivəsində, Türk Şurası məkanında, həmçinin mənzil-qərargahları Bakıda yerləşən TÜRKPA və Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu formatında fəal əməkdaşlıq edir, bir-birimizi dəstəkləyirik. Təəssüf ki, həqiqətən əldən buraxılmış imkanlar dövrü olub. Bu mənada biz çox şeyin əvəzini çıxmalıyıq.



# “Azərbaycan-NATO əməkdaşlığı planında Rumıniya çox mühüm rol oynayır”

## Prezident İlham Əliyev Rumıniyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Rumıniyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Vasile Soarenin etimadnaməsini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısını salamlayan səfir Vasile Soare dedi: Hörmətli cənab Prezident, icazə verin, mənim Rumıniyanın Azərbaycan Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməyim haqqında Rumıniya Prezidenti cənab Klaus Yohannis tərəfindən imzalanmış etimadnaməmi Sizə təqdim edim.

Səfir Vasile Soare etimadnaməsini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təqdim etdi.

Prezident İlham Əliyev: Sizi salamlayıram, Azərbaycana xoş gəlmisiniz. Ölkəmizdə vaxtınızın yaxşı keçməsini və fəal işləməyinizi arzu edirəm. Düşünürəm ki, siz artıq yaxşı tarixə malik olan qarşılıqlı münasibətlərimizin inkişafı üçün fəal səy göstərəcəksiniz. Ümid edirik ki, həm ikitərəfli münasibətlər, həm də Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı çərçivəsində perspektivlər bu cür yaxşı olacaq. Müzakirə ediləsi mövzular çoxdur. Əlbəttə, Azərbaycan-NATO əməkdaşlığı planında Rumıniya çox mühüm rol oynayır. Uzun illər boyu Rumıniya bu əməkdaşlığın möhkəmlənməsi üçün ən fəal rollardan birini oynayıb. Beləliklə, bizim münasibətlərimiz həm ikitərəfli formatı, həm də beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq formatını əhatə edir. Buna görə də burada perspektivlər çoxdur. Fikrimcə, iqtisadi-ticari sahədə və energetika sferasında əməkdaşlıq sahəsində, həm də nəqliyyat sahəsində imkanlar çoxdur. Ona görə ki, bildiyiniz kimi, Azərbaycan ölkənin Avrasiyanın nəqliyyat-logistika mərkəzinə çevrilməsi üçün böyük səy göstərir və bu istiqamətdə böyük işlər görülüb. Lakin çox şey ikitərəfli əlaqələrdən asılıdır. Odur ki, bizim mövcud olan və yaradılmasını planlaşdırdığımız infrastruktur yükgöndərənlər üçün alternativ imkanlar yaradacaq. Beləliklə, bu sahədə də əməkdaşlığa ümid edirik. Lakin bütün başqa istiqamətlər üzrə də biz sizin ölkənizlə əməkdaşlıq üçün həmişə açıq olmuşuq. Zənnimcə, biz bunu qarşılıqlı maraqlar əsasında davam etdirəcəyik. Sizə Azərbaycanda vaxtınızın yaxşı keçməsini və fəal işləməyinizi arzu edirəm.

Səfir Vasile Soare: Təşəkkür edirəm, cənab Prezident. Həqiqətən, Rumıniyanın Azərbaycanda səfiri təyin edilməyim mənim üçün böyük şərəfdir. Mən bu istiqamətdə uzun illər boyu işləmişəm. Bundan əvvəl Qazaxıstanda və Rusiya Federasiyasında səfir olmuşam. Uzun illər boyu Azərbaycan ilə münasibətlərə kuratorluq etmişəm, bütün tədbirlərimizi ən yüksək səviyyədə təşkil etmişəm. Bir faktı gizlətmirəm ki, 2009-cu ildə ölkələrimiz arasında strateji tərəfdaşlıq haqqında Bəyannamənin, həmçinin Fəaliyyət Planının və bu mühüm sənədə daxil edilmiş layihələrin hazırlanmasında bilavasitə iştirak etmişəm.



# ZƏNGƏZUR DƏHLİZİ:

## Ermənistanın daralan vaxtı

ANALİZ

İki gün öncə Türk dünyasının iki lideri - Azərbaycan və Türkiyə prezidentləri Zəngəzur dəhlizinin bir hissəsinin - Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun təməlini qoydular. Bütün dünya Azərbaycanın bir il bundan əvvəl işğaldan azad etdiyi ərazilərdə həyata keçirilən möhtəşəm iqtisadi layihələrin sürətlə həyata keçirilməsi xəbərini duymaqda və eşitməkdədir. Artıq Ermənistan cəmiyyəti əvvəl diplomatiyada, sonra müharibə meydanında, bu gün isə tikinti meydanlarında xarüqələr yaradan Azərbaycana qibtə ilə baxır, əksinə, 30 illik işğal dövründə Qarabağda heç bir quruculuq işi aparmayan rəhbərlərini lənətləyirlər. Bəli, Azərbaycan qurmaqla, yaratmaqla, 30 il yurdundan, yuvasından uzaq düşmüş insanların öz isti ocağına dönməsini təmin etməklə məşğuldur. Erməni vandalları tərəfindən yerlə yeksan edilmiş kənd və şəhərləri, qəsəbə və digər yaşayış məntəqələrini yenidən, sıfırdan quran, yeni infrastruktur layihələri -hava limanları, magistral və dəmir yolları, kənd təsərrüfatı obyektləri, su qovşaqları, yarımstansiyalar, ”ağıllı” kənd və şəhərlər inşa edən dövlətimiz unukal layihələrlə dünyanı heyrətləndirir.

Horadiz-Ağbənd dəmir yolu xəttinin çəkilişi bir başqa mövzudur. Əvvəla, bu, vaxtilə mövcud olmuş və erməni işğalçıları tərəfindən tamamilə dağıdılmış bir nəqliyyat infrastrukturunun yenidən bərpasıdır ki, bu da vacib idi. İkincisi, bərpa olunan dəmiryolu xətti həm də daha iri beynəlxalq layihənin, artıq inşasına başlanılmış Zəngəzur dəhlizinin Azərbaycandakı hissəsidir. Şərqi Zəngəzuru Azərbaycanın Naxçıvan hissəsi ilə birləşdirəcək Mehri kəsimi isə Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanmış üçtərəfli bəyanatın 9-cu bəndinə tam uyğun olaraq inşa ediləcək. Zəngəzur dəhlizi isə bütün Türk dünyasını birləşdirəcək. Həm Azərbaycan, həm Türkiyə Zəngəzur dəhlizinin gerçəkləşməsi üçün əməli addımlar atır. Əminik ki, bu addımlar yaxın gələcəkdə öz bəhrəsini verəcəkdir. Əslində bu layihələr həm Azərbaycan xalqına, həm Türkiyə xalqına, həm də bütün dünyaya bir mesajdır ki, biz bir yerdəyik, bizim birliyimiz sarsılmazdır və əbədidir.

Azərbaycan işğaldan azad edilmiş ərazilərdə yenidənqurma prosesini sürətləndirməklə yanaşı diplomatik sahədə də fəaliyyətini genişləndirir. Müharibə artıq başa çatıb, Ermənistan öz sərhədləri çərçivəsinə mövqe tutmağa məcbur edilib. Sərhədyanı kəndlərdə yaşayan və əvvəllər Füzuli rayonuna qədər olan əraziləri öz torpaqları kimi əkib-becərən, heyvandarlıq üçün istifadə edən erməni əhali ötən bir il müddətində yeni-köhnə sərhədlərə alışmağa başlayıblar. Təbii ki, Azərbaycanın qətiyyətli addımı, qalib Ordumuz tərəfindən sərhədlərimizdə aparılan hərbi və qeyri-hərbi əməliyyatlar Ermənistanın və dünya ictimaiyyətinin nəhayət Qarabağ həqiqətlərindən agah olması erməniləri reallıqla barışmağa məcbur edən amillər oldu.

Amma Ermənistanda hələ də əski ab-havada olan subyektlər dolaşır. Onların real gücü yoxdur, amma millət vəkili statusuna qədər yüksələ biliblər, yəni bir qism revanşist kütləni təmsil edə bilirlər. Buna baxmayaraq parlamentdə danışmaqdan o tərəfə keçə bilmirlər. Niyə? Çünki, səs üstünlüyü hakim partiyada, Paşinyanın tərəfdarlarındadır. İnsafən desək, Ermənistanda az-çox reallığı başa düşən, həqiqəti anlamağa çalışan, məğlubiyyəti ”kişi kimi” qəbul edən də Paşinyanın ətrafıdır. Məsələ burasındadır ki, ”zaman” deyilən bir məfhum Ermənistan xalqının başının üstünü kəsib. Ölüm-qalım məsələsidir, ya regionun iri layihələrinə qoşulub qazanmalı, ya da indiyədək göstərdiyi inadkarlığı davam etdirib acından ölməli. İtirməmək üçün də Azərbaycanla razılığa gəlmək yeganə çıxış yoludur. Zəngəzur dəhlizinin açılması Ermənistanın blokadadan çıxmasına, iqtisadi inkişafına xeyir vermiş olar. Sərhədlərin demarkasiya və delimitasitası isə iki ölkə arasında təhlükəsizliyi təmin edə, bütöv regionda sabitlik mühiti yarada bilər.





İki gün önsə Ermənistan parlamentində deputatların və hökumət qurumları rəhbərlərinin iştirakı ilə qapalı müzakirələr aparılıb. Mətbuata açıqlama verilməsə də müzakirələrdə iştirak edən müxalif deputatların narazı qalmasından, hökuməti tənqid etməsindən belə qənaətə gəlmək olar ki, məsələ çox mürəkkəbdir. Bir az irəli gedərək deyə bilərik ki, hətta Ermənistanın keçmiş hakimiyyət mənsublarını məyus edəcək xəbərlər eşidə bilərik.

Ermənistanın baş naziri Nikol Paşinyan Ermənistan-Azərbaycan sərhədindən danışarkən bildirib ki, bu məsələ sovet dövründən qalma xəritələr əsasında həll edilməlidir. Hətta Rusiya prezidenti Vladimir Putinin də bu təklifə razı olduğuna işarə vurub: ”Bu xəritələrdə sərhədlər Ermənistanın inzibati-ərazi bölgüsü haqqında 2010-cu il qanununda təsvir olunanlarla 100 yox, 99 faiz üst-üstə düşür. Delimitasiya üçün Sovet İttifaqının xəritələrindən istifadə edilməlidir. Araşdırmalarımız göstərir ki, müxtəlif illərin xəritələri bir-birinin surətidir, bu xəritələri daha dərindən öyrənib, hansının hüquqi əsası olduğunu anlamaq lazımdır. Bu xəritələrdə müəyyən ərazi fərqləri var”.

Baş nazir bildirib ki, indi ən vacib məsələ sərhəddəki vəziyyət və dəhliz məsələsini nizamlamaqdır: ”Burada, təbii ki, Rusiyanın iştirakı olmadan heç nə etmək olmaz. Çünki Rusiya Ordusunun Baş Qərargahında Sovet dövründə ittifaq respublikaları arasında sərhədin necə keçdiyini göstərən xəritələr var. Dəhlizlərə gəldikdə, düşünürəm ki, bu, regionda ziddiyyəti, düşmənçiliyi və düşmənçilik mühitini daha da gücləndirir. Hesab edirəm ki, 9 noyabr 2020-ci il tarixli bəyanatın 9-cu bəndində biz açıq şəkildə qeyd etmişik ki, bütün regional iqtisadi və nəqliyyat kommunikasiyaları açıq olmalıdır və biz bu məntiqə sadiqik. Bu o deməkdir ki, bir vaxtlar mövcud olan dəmir yolları müəyyən qaydada açılmalı, region ölkələrinə əlçatan olmalıdır. Vaxtilə mövcud olan yollar müəyyən qaydada yenidən açılmalı, region ölkələrinin istifadəsinə verilməlidir. Hesab edirəm ki, bu, təhlükəsizliyin mühüm tərkib hissəsidir, çünki bu kommunikasiyalar və iqtisadiyyat işə başlayanda təhlükəsizlik və sülhün müəyyən təminatını yaradır. Hesab edirik ki, kommunikasiyaların açılmasında, xüsusən də bu məntiq, bu məqsəd olmalıdır”.

Parlamentdəki Ermənistan müxalifəti isə qapalı iclasdan narazı qalıb. Azadlıq Radiosunun Erməni xidməti - ”Azatutyun” xəbər verir ki, müxalif deputatlar güc nazirliklərinin nümayəndələrindən bir çox suallarına cavab almadıqlarını deyirlər. Hətta ”Şərəfim var” müxalifət fraksiyasının deputatı Taqui Tovmasyan iclasın sonunu gözləmədən zalı tərk edib.

O bildirib ki, qapalı iclasda verilən sualların çoxuna hökumət nümayəndələri ”bu dövlət sirridir” cavabını veriblər: ”Mən dərindən məyus olmuşam və müzakirəni tərk etmişəm. Bu təlxəkliyə daha qulaq asa bilmədim”.

”Azatuyun” yazır ki, güc nazirliklərinin nümayəndələri jurnalistlərin suallarına ümumiyyətlə cavab verməyiblər. Qapalı iclasda Parlamentin müdafiə və təhlükəsizlik məsələləri üzrə komissiyasının rəhbəri Andranik Koçaryan iştirak etməyib. Onu əvəz edən Arman Xaçatryanın ardınca zaldan MTX sərhəd qoşunlarının komandanı çıxıb. Silahlı qüvvələr baş qərargahı rəisinin birinci müavini Kamo Koçunts isə müzakirələrdən sonra özünü o qədər itirib ki, çıxış qapısını tapa bilməyib, general daha sonra mühafizə xidmətindən ona binadan çıxmaqda kömək etmələrini istəyib.

”Ermənistan” fraksiyasının rəhbəri Seyran Ohanyan jurnalistlərə açıqlamasında Ermənistan Parlamentinin qapalı iclasından sonra Ermənistanla Azərbaycan arasındakı təmas xəttindəki vəziyyət və delimitasiya problemləri ilə bağlı fraksiyanın çıxardığı nəticələr barədə danışıb: ”Belə bir görüşdə hakimiyyətin birinci simaları iştirak etməli idilər. Bu yaxınlarda Azərbaycan və Ermənistan arasında yeni sənədlərin imzalanacağına dair söz-söhbət barədə isə iclasa dəvət olunan hakimiyyət nümayəndələrində heç bir informasiya olmayıb. Əslində vahid əsas və ilkin şərt olmadan, heç bir sifariş və hüquqi əsas olmadan sərhədlərin müəyyənləşdirilməsi Azərbaycanın məcburiyyəti ilə həyata keçirilir. Heç kim nəticə çıxarmayıb ki, azərbaycanlılar Ermənistan ərazisinə niyə daxil olublar, kimin günahı var, hansı məsuliyyəti üzərinə götürüblər və bu mövqelərin bərpası üçün bu gün hansı tədbirlər görülür”.

”Ermənistan” fraksiyasının katibi Artsvik Minasyan xarici işlər nazirinin iclasa niyə gəlmədiyi ilə maraqlanıb: ”Biz xarici işlər nazirinin də müzakirəyə cəlb olunmasını təklif etmişik. Niyə gəlməyib? Səbəb sırf işlə bağlıdır? Nə baş verir? Axı bir çox suallar məhz onun sahəsinə aiddir”.

Ermənistan rəsmi və qeyri-rəsmi şəxslərinin subyektiv yanaşmasına rəğmən Zəngəzur dəhlizinin açılması çox real görünür.

Azərbaycan Prezidenti İlham Əliyevin dediyi kimi, Azərbaycanla Türkiyə yeni bir nəqliyyat layihəsi ilə birləşəcək. Bakı-Tbilisi-Qars dəmir yolu sayəsində Türkiyə ilə birləşdik. Zəngəzur dəhlizi isə ikinci bir birləşmə istiqaməti olacaq. Beləliklə, bizim üçün yeni fürsətlər ortaya çıxacaq. Eyni zamanda, Azərbaycan öz ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası ilə də dəmir yolu ilə birləşəcək. Ancaq Zəngəzur dəhlizinin tam fəaliyyəti üçün həm dəmir yolu, həm avtomobil yolu olmalıdır. Biz Bakıda avtomobilə əyləşib oradan rahatlıqla Türkiyəyə və Naxçıvana keçə bilərik.

Zəngəzur dəhlizinin Avrasiyanın yeni bir nəqliyyat layihəsinə çevrilə biləcəyini xüsusi vurğulayan Prezident İlham Əliyev qeyd edib ki, bu, eyni zamanda, bölgə ölkələri üçün də yeni fürsət olacaq. Türkiyə, Rusiya və İran öz mallarını Orta Asiyaya, Avropaya daha qısa yolla, alternativ yolla daşıya biləcək. Beləliklə, bu, Avrasiyanın yeni bir nəqliyyat layihəsinə çevrilə bilər.

Azərbaycan Prezidenti Zəngəzur dəhlizinin açılacağından danışarkən qeyd edib ki, Rusiya dəmir yolları bütün Ermənistanın dəmir yollarına sahibdir: ”Deməli, Ermənistan dəmir yolları ona məxsusdur. Ona görə biz bu məsələni daha çox Rusiya tərəfi ilə müzakirə edirik. Şərqi Zəngəzur bölgəsində yerləşən Zəngilanı bizim qədim torpağımız olan Qərbi Zəngəzurla, ondan sonra Ordubad vasitəsilə Naxçıvanla və Türkiyə ilə birləşdirmək bizim növbəti tarixi nailiyyətimiz olacaq. Əminəm ki, bu, olacaqdır, məndə heç bir şübhə yoxdur. Bir daha demək istəyirəm ki, Azərbaycan öz üzərinə düşən vəzifələri icra edəcək və əlindən gələni edəcək ki, bu layihənin həyata keçirilməsində heç bir problem olmasın”.

Beləliklə, Azərbaycan qurur, yaradır, iri infrastruktur layihələri həyata keçirir, Ermənistan isə

**V.VƏLİYEV**

# 29 oktyabr

## Türkiyə Cümhuriyyəti Günüdür

### Prezident İlham Əliyev Türkiyə Prezidentini təbrik edib

**Azərbaycan Prezidenti İlham Əliyev 29 oktyabr Türkiyə Cümhuriyyəti Günü ilə bağlı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana təbrik məktubu göndərib. Məktubda deyilir: "Hörmətli cənab Prezident, Əziz Qardaşım, Türkiyə Respublikasının milli bayramı - Respublika Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirməkdən məmnunluq duyuram.**



Siyasi, iqtisadi, hərbi cəhətdən qüdrətli və sabit Türkiyə Respublikası bu gün beynəlxalq arenada olduqca əhəmiyyətli yerə malikdir. Sizin rəhbərliyiniz altında icra olunan irimiqyaslı proqramlar, layihələr qardaş ölkənizin hərtərəfli tərəqqisinə və yüksəlişinə xidmət edir. Şübhəsiz, xalqın Sizə olan böyük inam və etimadı həyata keçirdiyiniz strateji inkişaf xəttinin uğurunu təmin edən ən mühüm amildir.

Xalqlarımızın ortaq tarixi və milli-mənəvi dəyərləri kimi möhkəm təməllər üzərində dayanan Azərbaycan-Türkiyə dostluq və qardaşlıq əlaqələri birliyimizin və həmrəyliyimizin bariz ifadəsidir. Hazırda bu əlaqələrin tarixi dövrünə şahidlik edirik. Şuşa Bəyannaməsində müəyyənləşdirdiyimiz hədəflərə və istiqamətlərə uyğun olaraq müttəfiqlik münasibətlərimiz gündən-günə genişlənməkdə və yeni məzmunla zənginləşməkdədir. Azərbaycanın öz torpaqlarının işğaldan azad olunması uğrunda apardığı mübarizədə şəxsən Sizin, qardaş Türkiyə dövləti və xalqının qəti, birmənalı siyasi və mənəvi dəstəyi böyük rol oynamışdır. Azərbaycan-Türkiyə həmrəyliyini bir daha bütün dünyaya nümayiş etdirmiş bu dəstəyi xalqımız heç zaman unutmayacaq.

Əminəm ki, "Bir millət iki dövlət" şüarına uyğun olaraq birliyimizin, bütün sahələrdə səmərəli və fəal əməkdaşlığımızın daha da möhkəmləndirilməsi və inkişafı üçün birgə səylərimizi davam etdirəcəyik. Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Türkiyə xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram".

### 29 oktyabr tarixində Türkiyədə qeyd olunan dövlət bayramı

1922-ci ildə səltənətin qaldırılmasından sonra Türkiyə dövlətinin siyasi quruluşunun yekun təsbiti məsələsi 1923-cü ilin oktyabrında cümhuriyyətin elanı ilə həll edildi. 6 əsr ərzində çoxmillətli türk-islam monarxiyası şəklində həyat sürən Türkiyə dövləti TBMM-in 29 oktyabr tarixli qərarı ilə həyatına respublika kimi davam etmişdir. Cümhuriyyətin elanından sonra ilk Prezident seçilən Mustafa Kamal Paşa Türkiyənin Osmanlı İmperiyasından yeni siyasi rejimə faktiki keçidini şərtləndirən geniş miqyaslı islahatların banisidir. 1925-ci ildən etibarən keçirilməyə başlayan bayram Türkiyənin bütün şəhərlərində, Şimali Kipr Türk Respublikasında (KKTC) və dünyanın bütün ölkələrindəki Türkiyə səfirliklərində qeyd edilir.

Azərbaycan - Türkiyə münasibətləri milli, mənəvi və mədəni dəyərləri ilə bir-birinə eyni köklərlə bağlı olan xalqlarımızın iradəsindən qaynaqlanır. Hazırda dünyada bir-birinə bu qədər yaxın olan ikinci bir nümunə göstərmək mümkün deyil. Bu mənada Türk dünyasının böyük oğlu Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir", Ümummilli Lider Heydər Əliyevin "Bir millət iki dövlət" ifadələri münasibətlərimizin əsl mahiyyətini əks etdirir.

İftixarla qeyd etmək lazımdır ki, Qurtuluş savaşından sonra çox mürəkkəb və ziddiyyətli bir beynəlxalq vəziyyətdə Türkiyə Cümhuriyyətinin elan edilməsi XX əsrin ən mühüm hadisələrindən idi. Keçən dövr ərzində Türkiyə Cümhuriyyəti hərtərəfli inkişaf edərək, çox böyük və şərəfli yüksəliş yolu keçmiş, ən inkişaf etmiş dövlətlərlə bir sırada layiqli yerini tutmuşdur.

Dünyanın siyasi xəritəsində mühüm mövqeyə malik Türkiyə XXI əsrin əvvəllərindən regionda və dünyada əsas söz sahiblərindən birinə çevrilmişdir. Təsadüfi deyildir ki, Türkiyə "Böyük-İyirmilik" ölkələri içərisində ən sürətlə inkişaf edən iqtisadiyyata malik ölkələrdən biridir. Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanı tanıyan ilk dövlət Türkiyə olmuşdur. Müstəqilliyin ilk illərindən etibarən Türkiyə Azərbaycanın dövlət quruculuğu yolunda atdığı addımları daim dəstəkləmiş, böyük dövlətlərin iştirak etdiyi tədbirlərdə Azərbaycan naminə haqq səsini ucaltmışdır. Ölkəmizin ən ağrılı problemi olan Dağlıq Qarabağ münaqişəsinin həllində Türkiyənin həmişə Azərbaycan xalqının yanında olması böyük dostluğumuzun, qardaşlığımızın ifadəsi və həmrəyliyimizin rəmzidir.

Bu yerdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın bəzi dövlətlərin Azərbaycan-Türkiyə birliyinə, qardaşlığına qısqanclıqlı yanaşanlara verdiyi cavabı bir daha qed etmək yerinə düşər: "Bəzi amerikalılar İlham qardaşıma zəng edib deyir: "Biz sizin yanınızda kimin yer aldığını bilirik, Ərdoğan var, Türkiyə var. Biz Türkiyəyə də lazım gələrsə, sanksiya tətbiq edərik". Sən kiminlə oynadığının fərqində deyilsən. Sanksiya tətbiq etmək istəyirsənsə, et, gecikdirmə. "F-35" üçün addım atdıq, bizi təhdid etdiniz. "S-400"ləri Rusiyaya geri göndərin" dediniz. Biz qəbilə dövləti deyilik. Biz Türkiyəyik, Türkiyə! Dünyanı yaşanmaz hala gətirən qüvvələr oyunlarını pozduğumuza, gerçək üzlərini ortaya çıxardığımıza görə bizi hədəf taxtasına qoyublar. Qoysunlar, dayanmaq olmaz, yola davam!". Ən ağrılı problemi olan Dağlıq Qarabağ münaqişəsinin həllində Türkiyənin həmişə Azərbaycan xalqının yanında olması böyük dostluğumuzun, qardaşlığımızın ifadəsi və həmrəyliyimizin rəmzidir. Bəli, Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanı tanıyan ilk dövlət Türkiyə olmuşdur. Müstəqilliyin ilk illərindən etibarən Türkiyə Azərbaycanın dövlət quruculuğu yolunda atdığı addımları daim dəstəkləmiş, böyük dövlətlərin iştirak etdiyi tədbirlərdə Azərbaycan naminə haqq səsini ucaltmışdır. Ölkəmizin ən ağrılı problemi olan Dağlıq Qarabağ münaqişəsinin həllində Türkiyənin həmişə Azərbaycan xalqının yanında olması böyük dostluğumuzun, qardaşlığımızın ifadəsi və həmrəyliyimizin rəmzidir.

Hazırda dünyada bir-birinə bu qədər yaxın olan ikinci bir nümunə göstərmək mümkün deyil. Bu mənada türk dünyasının böyük oğlu Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir", Ümummilli Lider Heydər Əliyevin "Bir millət iki dövlət" ifadələri münasibətlərimizin əsl mahiyyətini əks etdirir.

Elə bu günlərdə, oktyabrın 26-da Türkiyə Prezident Rəcəb Tayyib Ərdoğanın Qarabağa ikinci səfəri çərçivəsində Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimində iştirak etməsi, Zəngəzur dəhlizinin - Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun, Zəngilan rayonunda "Dost Aqropark"ın təməlinin qoyulması, "Ağıllı kənd" layihəsi çərçivəsində görülən işlərlə tanış olması bir daha qardaş ölkənin Azərbaycanın uğurlarını, sevincini paylaşmasınını reallığıdır. Zəngilanda keçirilmiş görüşlər zamanı bir daha dünyaya mesaj verildi ki, hər iki ölkənin liderləri öz əməli fəaliyyətləri ilə milli maraqları hər şeydən üstün tutduqlarını və qətiyyətlə qoruduqlarını nümayiş etdirirlər. Bu gün öz liderlərinin sayəsində Türkiyə və Azərbaycan böyük uğurlar əldə edib, bütün dünyada prinsipial, cəsarətli, düşünülmüş siyasət yürüdən ölkələr kimi tanınır və qəbul edilir.

Qeyd edək ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan iyunun 15-də Qarabağa ilk səfərində müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi imzalandı və bəyannamə Türkiyənin Naxçıvanın qarantı olduğu kimi, Qarabağın da qarantı - bölgədə Azərbaycanın təhlükəsizliyinin zamini olması idi. Şuşa Bəyannaməsinin regionda güc balansını dəyişməsinin ardınca Prezident İlham Əliyev 7 iyul Fərmanı ilə Qarabağ iqtisadi rayonunu (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları) yaratdı: bu, ermənilərin yaşadığı ərazilərin Azərbaycan suverenliyi tərkibində gələcəyini müəyyənləşdirən qərarı oldu. Türkiyə lideri Xankəndinin də daxil olduğu Qarabağ iqtisadi rayonuna ilk səfəri ilə bu ərazilərdə Azərbaycan idarəçiliyinin bərpa edilməsinin alternativi olmadığını və bu prosesdə Ankaranın Bakının yanında olduğunu nümayiş etdirdi. Eyni zamanda, təkcə bölgədə sülhməramlı kontingentə sahib olan Rusiya üçün yox, həm də "status" məsələsini diriltmək istəyən bütün tərəflərə mesajını da etdi. Həmçinin, bildirildi ki, Füzuli Beynəlxalq Hava Limanının inşası Zəngəzur dəhlizinin əhəmiyyətini artıran əsas addımlardan biridir.

Türkiyə liderinin təyyarə ilə Füzuliyə gəlişi dünyaya müharibənin başa çatdığı reallığının göstərilməsi və təhlükəsizlik faktoruna önəm verən xarici sərmayələrin bölgəyə cəlb edilməsi baxımından da əhəmiyyətlidir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın hər səfəri və Azərbaycanın kədəri, sevinci ilə bir olması bir daha sübut edildi ki, Azərbaycan-Türkiyə birliyi dostluq, qardaşlıq və müttəfiqlik rəmzinə çevrilib, dünyada dil və etnik baxımdan bir-birinə yaxın ölkələrin çox olması fonunda Azərbaycan-Türkiyə birliyi nümunəvi xarakter daşıyır. Və bu gün Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamı sadəcə olaraq, kəlam deyil, bu, gerçəkdir. Artıq bu reallıq bütün sahələrdə sübuta yetirilməkdədir. Hər zaman da bu, belə olacaq.

**RƏFİQƏ KAMALQIZI**

## YAP GB-nın nümayəndə heyəti Ukraynada səfərdədir

Yeni Azərbaycan Partiyasının Gənclər Birliyinin sədri Bəxtiyar İslamov, sədr müavini Fəsli Nəbiyev, üzvlər - Ülkər Qəhrəmanova, Hüseynxan Hacızadə və YAP Mərkəzi Aparatının Beynəlxalq əlaqələr şöbəsinin baş məsləhətçisi Hülya Məmmədlidən ibarət nümayəndə heyəti hakim "Sluqa Narodu" partiyasının gənclər qolu olan "Ze!Molodijka" təşkilatının dəvəti ilə Ukraynada səfərdədir. SİA-nın məlumatına görə, səfərin məqsədi YAP Gənclər Birliyi ilə "Ze!Molodijka" təşkilatı arasındakı mövcud əlaqələrin daha da gücləndirilməsi, münasibətlərinin dərinləşdirilməsidir.

Oktyabrın 30-dək davam edəcək səfər çərçivəsində YAP Gənclər Birliyi və "Ze!Molodijka" təşkilatı arasında Əməkdaşlıq haqqında Memorandum imzalanacaq. Həmçinin "Gənclər arasında təcrübə mübadiləsi" mövzusunda dəyirmi masa təşkil olunacaq. Xarkov şəhər meriyasının rəhbərliyi, Azərbaycanın Xarkovdakı Fəxri Konsulu Əfqan Salmanov, Ukraynanın Gənclər və İdman nazirinin müavini Marina Popatenko ilə də görüşlərin keçirilməsi nəzərdə tutulur.

## "Azərbaycan Qoşulmama Hərəkatına yeni nəfəs verib, onu daha da canlandırıb"



Qoşulmama Hərəkatının UNESCO yanındakı qrupu Azərbaycanın sədrliyi çərçivəsində çox fəaldır. Azərbaycan Qoşulmama Hərəkatına yeni nəfəs verib, onu daha da canlandırıb. Azərbaycanla UNESCO arasında yüksək əməkdaşlıq var. Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu ilə bağlı Azərbaycanın irəli sürdüyü bir çox təşəbbüslər böyük əhəmiyyət daşıyır. UNESCO Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun tərəfdaşlarından biridir. UNESCO çərçivəsində Azərbaycan Afrika ölkələri ilə bağlı çoxsaylı mühüm layihələr həyata keçirib.

Bu fikirləri AZƏRTAC-a müsahibəsində UNESCO-nun Afrika prioriteti və beynəlxalq əlaqələr üzrə Baş direktorunun müavini Eduard Matoko deyib.

E.Matoko bildirib ki, Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi çərçivəsində çox fəaldır. Çoxsaylı tədbirlər təşkil olunur. Təkcə Parisdəki Azərbaycan Mədəniyyət Mərkəzində Qoşulmama Hərəkatı ilə bağlı artıq ikinci tədbir keçirilib. UNESCO-nun mənzil-qərargahında da Qoşulmama Hərəkatı ilə bağlı tədbirlər keçirilib.

# Qüdrətli Azərbaycan və Türkiyə iki xalqın qardaşlıq hekayəsidir



**Oktyabrın 29-da Türkiyə Respublikasının milli bayramı - Respublika Günü qeyd olunur. Artıq 98 ildir ki, qəhrəman türk xalqı bu günü böyük təntənə ilə qeyd edir və Cümhuriyyətin 100 iliyinə böyük inamla hazırlıq işləri görülür.**

AZƏRTAC xəbər verir ki, Respublika Günü münasibətilə oktyabrın 29-da Türkiyədə bayram tətili olacaq. Türkiyə Respublikasının banisi, qazi Mustafa Kamal Atatürkün əziz xatirəsi ehtiramla anılacaq, ölkə üzrə təntənəli tədbirlər keçiriləcək.

Respublika Gününün qəhrəman türk xalqının öz dövlətçiliyi uğrunda apardığı çətin və şərəfli mübarizənin nəticəsi olaraq qazanılıb.

Birinci Dünya müharibəsində məğlubiyyət anlaşmalarını qəbul etmək məcburiyyətində qalan Osmanlı İmperatorluğunun çökməsi türk xalqını çətin sınaqlar qarşısında qoymuşdu. Belə bir şəraitdə qazi Mustafa Kamal Paşanın ətrafında sıx birləşən türk xalqı milli azadlıq mübarizəsinə qoşulmuş və ardıcıl şəkildə işğalçı düşmənlərin hiylə və təxribatlarını dəf etməkdə idi. Beləliklə, düşmən qüvvələrinin cəbhə xətlərində sıxışdırılması türk xalqının siyasi müqəddəratı üçün yeni şanslar yaratmağa başladı. 1923-cü il oktyabrın 24-də imzalanan Lozanna sülh anlaşması yeni türk dövlətinin müstəqilliyinin qəbul edilməsi ilə nəticələndi. Sonrakı beş gündə Türkiyə Respublikasının qurulması və yeni hökumətin formalaşması üçün bir-birinin ardınca mühüm addımlar atıldı.

Mustafa Kamal Paşa 1923-cü il oktyabrın 28-də Çankaya köşkündə silahdaşları ilə bir araya gələrək süfrə arxasında yeni hökumət barədə müzakirələr apardı. İlk hökumətin qurulması İmət İnönüyə, Türkiyə Böyük Millət Məclisinə sədrlik isə Fethi Okyara həvalə edilir.

Qəhrəman və mübariz türk xalqı oktyabrın 29-da gecə və ertəsi gün Cümhuriyyətin qurulması barədə elanı coşqu ilə qarşılayıb. Bu təntənə milli birlik məsajı olaraq bir daha türk torpaqlarına diş qıcayaq düşmən qüvvələrinə gözdağı verib. Cümhuriyyətin qurulmasının birinci ildönümü münasibətilə 1924-cü il oktyabrın 26-da toplardan 101 yaylım atəşi açılıb.

1925-ci il aprelin 18-də qəbul edilmiş qanun əsasında 29 oktyabr tarixi Türkiyənin Milli Bayramı - Respublika Günü olaraq qəbul edilir.

Ötən 98 ildə çətin və ağır dövlətçilik yolu keçən Türkiyə hərbi çevrilişlər, siyasi qətllər, terror kabusu kimi amansız düşmənlərə qarşı mətanətlə davam gətirib. Azərbaycanın 1991-ci ildə dövlət müstəqilliyini bərpa etməsi Türkiyə Respublikasının dövlətçilik tarixində yeni üfüqlər açıb. Müstəqilliyin bərpasının ilk illərində Ermənistanın əsassız torpaq iddiaları yaranan müharibə Türkiyə-Azərbaycan münasibətlərindəki inkişaf strategiyasını uzun illər əngəlləyib. Azərbaycan xalqının təkidli tələbi ilə ümummilli lider Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışı mənfur planları pozdu. Ulu Öndərimizin böyük qətiyyəti ilə Azərbaycanın parçalanması, dövlətimiz üçün yaranmış real təhlükələr aradan qaldırıldı.

İftixar edirik ki, ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi inkişaf siyasəti Azərbaycanın və Türkiyənin birgə yüksəliş strategiyasına çevrilib. Hazırda dünya ölkələrində enerji böhranı yaşandığı bir vaxtda qardaş Türkiyə enerji məhsullarının tranzit nəqletmə mərkəzi kimi tanınır və qəbul edilir. Avrasiyanın enerji təhlükəsizliyinin təmin edilməsində Azərbaycanın və Türkiyənin liderliyi ilə həyata keçirilən beynəlxalq səviyyəli layihələr həlledici gücə malikdir. Azərbaycanın karbohidrogen ehtiyatlarının Türkiyə üzərindən Avropaya nəqli iki qardaş ölkə üçün özünəməxsus iqtisadi-siyasi üstünlüklər yaradıb.

...Ermənistanın təcavüzkar siyasəti və mövcud işğal illər uzunu Azərbaycan və Türkiyə üçün ciddi maneəyə çevrilsə də, iki qardaş ölkənin birgə inkişaf strategiyası müəyyən edilmiş hədəflərə çatıb və yeni-yeni perspektivli layihələrə təməl yaradıb. Ermənistanın hərbi təxribatları səbəbindən ötən il sentyabrın 27-də başlanıb 44 gün davam edən Vətən müharibəsinin rəşadətli nəticəsi isə qeyd etdiyimiz inkişaf strategiyasına yeni bir stimul verib. Bəli, Türkiyə Respublikasının milli bayramı - Respublika Günü ərəfəsində Azərbaycana edilən tarixi səfər özündə bir sıra mənəvi dəyərləri ehtiva edir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana bu səfəri Prezident İlham Əliyevlə birlikdə Füzuli Beynəlxalq Hava Limanının açılışında iştirakı, iki liderin görüşləri və Şərqi Zəngəzurdan dünyaya verdikləri mesajlar, ali qonağa göstərilən yüksək diqqət və qonaqpərvərlik bir daha beynəlxalq ictimaiyyətə, eləcə də əsrlər boyu öz irqçiliklərinin qurbanına çevrilən məzlum ermənilərə nümayiş etdirdi ki, iki qardaş ölkənin həmrəyliyi və əməkdaşlığı sülhə, sabitliyə, inkişaf və tərəqqiyə xidmət edir. Günümüzün gerçəkləri təsdiq edir ki, Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün söylədiyi "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir!", ümummilli lider Heydər Əliyevin ifadə etdiyi "Bir millət, iki dövlət!" kəlamları nəsillərə örnək olan real həyat hekayələridir. Ulu öndərlərin rəhbərliyi ilə həyata keçirilən həyat hekayələrinin real nəticəsi bugünkü güclü və qüvvətli Azərbaycan-Türkiyə qardaşlığıdır. Azərbaycan Prezidenti İlham Əliyevin ilə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dostluq və qardaşlıq münasibətləri, eləcə də dövlət başçılarının liderlik xüsusiyyətlərindəki oxşar cəhətlər, o cümlədən qətiyyət, qərarlılıq və sarsılmaz siyasi iradənin yaratdığı real nəticələr iki doğma xalqın milli sərvətinə çevrilib.

Məqalənin sonunda böyük məmnuniyyətlə Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının milli bayramı - Respublika Günü münasibətilə Prezident Rəcəb Tayyib Ərdoğana ünvanlandığı 26 oktyabr 2021-ci il tarixli təbrik məktubundan mühüm bir məqamla tamamlamaq istərdik. Məktubda yazılır: "Xalqlarımızın ortaq tarixi və milli-mənəvi dəyərləri kimi möhkəm təməllər üzərində dayanan Azərbaycan-Türkiyə dostluq və qardaşlıq əlaqələri birliyimizin və həmrəyliyimizin bariz ifadəsidir. Hazırda bu əlaqələrin tarixi dövrünə şahidlik edirik. Şuşa Bəyannaməsində müəyyənləşdirdiyimiz hədəflərə və istiqamətlərə uyğun olaraq mütəfiqlik münasibətlərimiz gündən-günə genişlənməkdə və yeni məzmunla zənginləşməkdədir".

***Sabir Şahtaxtı***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Ankara***

# Paşinyanın hansı cavabı revanşistləri susdurdu?

Erməni baş nazir: "Əgər müxalifət üçtərəfli bəyanatın geri çağırılması və ləğv edilməsi prosesini həyata keçirəcəklərini rəsmən bəyan edəcəklərsə, mən istefa verməyə hazıram"

**ANALİTİKA**

Ermənistanda siyasi gərilmə prosesi davam edir və bu məsələdə daha çox önə çıxan tərəf "Hayastan" blokudur. Bu blokda, əsasən, Ermənistanın əvvəlki hakimiyyətlərinin təmsilçiləri fəaliyyət göstərirlər, onlar, eyni zamanda, Qarabağ klanı kimi tanınırlar. Məqsədlərinin baş nazir Nikol Paşinyanı devrilmək və bu yolla hakimiyyətə gəlmək olduğunu gizlətməyən klan təmsilçiləri artıq bəyanatlarla çıxışlar edir, əsasən, həmin bəyanatlarında mövcud hakimiyyətin Qarabağ müharibəsindəki məğlubiyyəti ilə bağlı erməni ictimaiyyətinə əvvəlaxır hesabat verməli olduqlarını deyirlər.

## "Hayastan" bloku yalnız onun istefa məsələsini müzakirə etmək üçün müzakirə masasına otura biləcəyini bəyan edir

Nikol Paşinyan bir neçə dəfə müxalifətlə masa arxasına oturub-müzakirə aparmağa hazır olduğunu desə də, "Hayastan" bloku yalnız onun istefa məsələsini müzakirə etmək üçün müzakirə masasına otura biləcəyini bəyan edir.

Bugünlərdə Nikol Paşinyanın Azərbaycanla sərhədlərin demarkasiya və delimitasiyası ilə bağlı fikirləri isə Qarabağ kanının üzvlərini daha da hiddətləndirib. Xatırladaq ki, erməni baş nazir Azərbaycanla dövlət sərhədlərinin müəyyən edilməsi prosesinin məhz Rusiya prezidenti Vladimir Putinin 1920-ci illərin xətirəsi əsasında aparılması təklifini dəstəkləməsi və buna hazır olması ilə bağlı çıxış edib və bu çıxışdan sonra Qarabağın işğalında əsas rol oynamış revanşçı qüvvələr, xüsusilə Robert Koçaryan, Seyran Ohanyan və başqaları Paşinyanın bağlı qapılar arxasında dialoq təklifini yalnız onun istefa verəcəyi halda dəyərləndirəcəklərini bəyan ediblər.



## Lakin Paşinyan da necə deyərlər, "az aşın duzu" deyil...

Lakin Paşinyan da necə deyərlər, "az aşın duzu" deyil. Erməni baş nazir revanşçı Qarabağ klanının üzvlərinin onun təklifinə qarşı irəli sürdükləri şərtə öz şərti ilə cavab verib. "Əgər müxalifət 9 noyabr (10 noyabr-R.R.) üçtərəfli bəyanatın geri çağırılması və ləğv edilməsi prosesini həyata keçirəcəklərini rəsmən bəyan edəcəklərsə, mən istefa verməyə hazıram", deyən Paşinyan "Hayastan" blokunu çıxılmaz vəziyyətə, hətta daha dəqiq desək, seyt-nota salıb. Çünki o yaxşı bilir ki, müxalifət Ermənistanı tamamilə məhv olmaqdan qurtaran üçtərəfli bəyanatın qüvvədən düşməsi istiqamətində hər hansı addım atmağa cürət etməyəcək.

Bu bəyanatda Azərbaycan Prezidenti ilə yanaşı, Rusiyanın dövlət başçısının da imzası var və əgər Ermənistan nəyəsə cəhd edərsə, bu zaman həmin ölkənin bir dövlət olaraq xəritədə qalmaq şansları "0" həddinə düşəcək, yəni xəritədən silinəcək. Bütün bunlardan sonra Qarabağ klanının revanşçı qüvvələri gərəkli cavabı tapa bilməyiblər və görünür, bundan sonra da tapa bilməyəcəklər.

## 1920-ci ilin xəritəsi masa üzərindədir!

Onlar, sadəcə, sözdə müxaifətçi qismində Ermənistanın siyasi arenasında var-gəl edərək populizmlə, quru patriotizmlə fəaliyyət göstərəcəklər. Belə ki, artıq istər noyabrda, istərsə də başqa tarixlərdə sərhədlərin delimitasiyası prosesi baş verəcək və buna şübhə də yoxdur. Düzdür, hələlik, nə Rusiya, nə də Ermənistan mümkün üçtərəfli görüşlə bağlı rəsmi məlumat verməyiblər, lakin bu yaxınlarda Vladimir Putinin 1920-ci ilin xəritəsinin Rusiya Müdafiə Nazirliyinin Baş qərargahında olduğunu deməsi, onun ardınca isə Nikol Paşinyanın həmin xəritə əsasında sərhədlərin müəyyən edilməsi ilə bağlı fikirlərini bəyan etməsi artıq özü-özlüyündə bütün kartları açığa çıxarmış olur.

***Rövşən RƏSULOV***

# Sosial şəbəkələrdə tanışlığa CƏMİYYƏTİN BAXIŞI

**Son dövrlərə nəzər salsaq, demək olar ki, bir-birinə paralel olan evlilik və boşanma nisbətləri günümüzün ən çox müzakirə edilən mövzusudur. Xüsusən də gənc qızların və ya nikah yaşında olan gənc oğlanların sosial şəbəkə vasitəsi ilə kiminsə tapıb tanış olacağı və ailə quracağı inancı ən çox da ailələri düşündürür. Sosial media platformasında istifadəçilərin əylənmək məqsədi olmadan ciddi bir şəkildə tapıb görüşdükdən sonra quracaqları münasibət evliliyə mane olan hallardan deyil. İnternetdə tanış olub ailə quran insanların evlənməsinin caiz olmadığını demək olmaz. İnternetdə tanış olub evlənməyin problemi yoxdur. Ancaq evlilik üçün çox riskli bir yerdir. Görək insanlar sosial şəbəkələrdən tanışlığa necə münasibət göstərir? SİA olaraq şəhər sakinləri arasında sorğu keçirdik:**

**Şəhər sakini Şahin Hüseynov:** ”Bu barədə onu deyə bilərəm ki, artıq texnologiya əsrində yaşayırıq. Heç nə əvvəlki kimi deyil, hər həs bir-birini istər burada, istərsə də sosial şəbəkədə görüb tanış olurlar. Əgər onlarda alınsa və ciddi münasibət düşünsələr evlilik edirlər.



Mənim buna münasibətim normaldır. Bizim dövrlə bu dövrü eyni tutmaq düzgün deyil və hər dövrün özünəməxsus qanunları var. Əgər sosial şəbəkələrdən yaxşı niyyətlə istifadə edib tanış olurlarsa, buna pis baxmağım doğru olmaz”.

**Şəhər sakini Gülşən Nəsirova:** ”Mən bu məsələyə yaxşı münasibət göstərmirəm. Çünki iki insan ekran arxasında necə bir-biri ilə tanış olub, ona güvənə bilər, bu, nə dərəcədə düzgündür? Məncə, tanış olsalar da, onların üz-üzə görüşməsi



mütləqdir. Onlar bir-birinin emosiyalarını, mimikalarını danışıq mədəniyyətini və davranışlarını yaxından anlamalıdırlar. Bunun üçün də üz-üzə tanış olmaları mütləqdir”.

**Şəhər sakini Şahbaz Bədəlov:** ”Bizim dövrümüzdə texnologiya çox az inkişaf etdiyinə görə, biz belə hallar yaşamamışıq. O vaxt bir kişi bir xanımı bəyənirdi, yaxınlaşıb fikrini almağa da utanardı. Sonra isə ailəsi ilə həmin xanıma elçi gedərdilər. Lakin indi görürəm ki, belə hallar azalıb artıq sevgililər öz aralarında danışıb, görüşürlər əgər alınarsa, sonra ailələrinə deyirlər. Yəni bu dövrə görə bir tərəfdən insanların bir-birini tanıması yaxşıdır, amma bunun yaxşı olmayan tərəflərinin də şahidi oluruq”.



**Şəhər sakini Günel Rzayeva:** ”Deyirlər ki, sosial şəbəkə-



də tanış olanların sonu faciə ilə nəticələnir. Ancaq qeyri-sosial şəbəkədə də tanış olub evlənənlərin də sonunun faciə ilə bitənləri var. Buna görə də sosial şəbəkələri günahlandırmaq lazım deyil. Sovet vaxtı inkişaf var idi. Nadir hallarda oğlan qızın üzünü toy günü görürdü. Amma sovet dağıldıqdan sonra bir sıra bölgələrdə sanki keçmişə qayıdış oldu. Sosial şəbəkə anlayışına insanlar hələ ki, öyrəşməyiblər. Hazırda cəmiyyətdə əgər qız sosial şəbəkədədirsə, pis qızdır kimi düşüncələr var. Halbuki, insanların sosial şəbəkədə olması, hətta burada kiminləsə tanış olması normal bir şeydir”.

**Şəhər sakini İsmət Soltanov:** ”Əvvəllər bu normal idi ki, qohum-əqraba düzüb qoşurdu, qız ərə gedirdi. Amma indi informasiya bolluğudur və insanlar bunu qəbul etmirlər. Münasibətlərdə əvvəllər kişi həyat yoldaşını vuranda deyirdilər ki, dözməlisən. Ancaq indi anlayışlar dəyişib və qadın bunu qəbul etmir. Buna görə də mentalitet zamanla dəyişə bilir. Təəssüflər olsun ki, cəmiyyətimizdə sosial şəbəkədə tanış olanlara, xüsu-



sən də, qızlara çox adam normal baxmırlar. Oğlana hər şey ola bilər, amma qıza yox. Buda mentalitetdən irəli gəlir. Ancaq mən özüm normal baxıram”.

**Şəhər sakini Qəndab Əliyeva:** ”Əgər bunu yaxşı yönə istifadə edirlərsə, bəli, mən buna yaxşı baxıram. Lakin indi gənclərin çoxu internetdən yaxşı niyyətlə istifadə etmirlər. Elə hadisələr olur ki, qızla oğlan ta-



nış olduqdan sonra, oğlan həmin qıza başqa niyyətlə yanaşır və onun xoş rəftarından istifadə edir. Belə olan hallarda isə bəzi gənc qızlarımızın həyatı məhv olur. Bu cür hadisələri göz önünə gətirdikdə isə, bunun bir bəla olduğunu düşünürəm”.

**Şəhər sakini Samit Mədətov:** ”İnternet həyatımızın ayrılmaz bir hissəsinə çevrilib. Nə qədər ondan qaçmaq istəsək də, hazırda bu, mükün deyil. İnternet bir çox işlərimizi asanlaşdırdığı kimi, həyatımızda da bə-



zi dəyişikliklərin yaranmasına səbəb olub. Bir vətəndaş olaraq internetdə tanış olub evlənən cütlüklərə çox yaxşı baxıram. Bu, normal bir haldır, çünki internet insanların komplekssiz olmasına çox kömək edir. Bunun üçün də insanlar komplekssiz ailə həyatı qururlar. Lakin bəziləri də var ki, sırf internetdə özlərini gizlədə bilirlər. Yəni istər xarici görkəmində olsun, istərsə də danışıqlarında. Buna görə də bəzi insanlar internet evliliyinə yaxşı yanaşmırlar. Sosial şəbəkədə tanış olub ailə həyatı qurmaq normal bir haldır. Bunu pis qarşılamaq heç də düzgün deyil”.

**Şəhər sakini Murad Adiloğlu:** ”Sosisal şəbəkələr bu dəqiqə həyatımızda ön plandadır. Yaşlı nəsil bunu bir o qədər də önəmsəmir, amma gənc və orta nəsilin demək olar ki, sosial şəbəkəsiz günü keçirmir. Azərbaycanda milli mentalitet baxımından sosial şəbəkələrdə tanış olan bəylər və xanımlar cəmiyyət tərəfindən düzgün qarşılanmırlar, və nəticədə bir-



birilərini tanımadan ailə həyatı qururlar. Əslində, mən valideynlərin məsləhət gördüyü evliliyə də razı deyiləm, o da elə sosial şəbəkənin fərqli bir formasıdır. Mən düşünürəm ki, bəy və xanımlar sosial şəbəkədə tanış olsalar belə, onlara müəyyən bir vaxt verilməlidir ki, yaxından tanış ola bilsinlər. Əvvəlcədən bildirirəm ki, bizim mentalitetimizə uyğun olmasa da, bir çox xarici ölkələrdə insanlar bir müddət eyni evdə yaşayırlar və sonradan əgər onlarda hər şey yaxşı alınarsa o zaman evlənməyə qərar verirlər. Məncə, bizdə nişanlılıq müddəti biraz uzun olmalıdır ki, onlar da bir-birilərini yetəri qədər tanısınlar”.

**Şəhər sakini Aygül Kərimova:** ”Ümumiyyətlə, hal-hazırkı dövrdə demək olar ki, çox sahədə inkişaf sürətlə gedir. İnsanların daha rahat, əlverişli, məqsədəuyğun istifadə edə biləcəyi yeniliklər ixtira edilir. Bu günümüzdə sosial şəbəkənin rolu əvəzsizdir. Düzdür özünəməxsus mənfi cəhətləri də var, lakin baxır kim, necə və hansı dərəcədə istifadə edir. Burada müxtəlif fikirli, məqsədli insanlar var. Lakin ciddi tanışlıq, sağlam münasibət, sevgi axtaranlar da az deyil. Bu cür insanların əksəriyyəti real həyatda istədiyini ala bilməyən, özünə qapalı, çəkinən insanlardı. Onlarda müasir dövrün yaratdığı asan, geniş imkandan istifadə edir. İndiki vaxtda sosial şəbəkədə tanış olub ailə həyatı quranlara pis baxmıram. Yəni misal çəkdiyim insanlardı əksəriyyəti, çarəsiz, tənha, özünə qapalı olanlardır. Onların burada öz istəklərinə qovuşması, ailə sevinci, xoşbəxtlik tapması pis hal deyil. Bu cür ünsiyyət, tanışlıq saytları dünya miqyasında öz sözünü deyib. Bu vasitə insanı tanımaq üçün müəyyən qədər açıq və əlverişlidi”.

***Rüqəyya Orucova***




# Şəhid Mürsəl Kazımlının anım günü keçirilib

## Şəhid Mürsəl Kazımlının anım günündən qalan... Xatirələr...





Mürsəl bala, Tanrı dağında olan ruhuna salamlar, Tanrı dərgahında cənnət məknanına salamlar. Sənin cismindir gedən... Ruhun səni sevənlərin qəlbinə köçüb, taxt-tac qurub qəlblərdə. Bu gün ölüm mələyin çiyinlərinə endin. Səni Tanrının ən yüksək zirvəsinə şəhadətlik zirvəsinə qaldırdı. Bu elə bir zirvədir ki, hər kəs o zirvəyə çata bilməz. Vətəninə, elinə bağlı Şəhid Mürsəl. Sən bütün arzularını, gələcək planlarını, doğmalarını, sevdiklərini arxanca buraxıb döyüşə yollandın. Vətənin ən böyük dərdi ”Qarabağ dərdi” vardı. Qarabağ- Vətənimizin alnında sanki bir ləkə idi. Sizin kimi mərd oğulların qəhrəmanlığı, şücaəti, qorxmazlığı hesabına bu ləkə Vətənimizin alnından təmizləndi. Sizin kimi oğullar bu yolda sinəsini sipər etdi. Qarış-qarış torpaqlarımız geri alındı. Vətənin hər daşında, hər torpağında sizin kimi şəhid oğulların qanı töküldü. QAN TORPAĞA QARIŞANDA VƏTƏNDİR. İgid Mürsəl bala, çoxlu arzuların yarım qaldı... Pünhan sevgin yarım qaldı. Sən ailənizin tək oğul övladı olmağına baxmayaraq Vətəni hər kəsdən, hər şeydən üstün tutdun. XATİRƏLƏRİN qaldı... Uşaqlıq xatirələrin, gənclik xatirələrin doğmalarının gözlərində kök saldı. Vətən müharibəsinə könüllü yollanan zaman heç nəyi düşünmədin. Vətən sevgisi səni ölümün gözünə dik baxmağa məcbur etdi. Axı bilirdin ki, bu gedişin dönüşü olmaya da bilərdi. Kamil müəllim, Lalə xanım sizin oğlunuz hamımızın doğması oldu... Sizlər Şəhid Mürsəlimizin bizlərə əmanət qalan valideynlərini.... Tanrı sizləri qorusun. Sizlər, o qədər məğrur, mətin, iradəli, vətənsevər insanlarsız ki, gözlərinizdə bir yığın qəm yükü olmağına baxmayaraq. Kazımovlar ailəsinin tərbiyə verib, yetişdirdiyi igid Mürsəlimiz bir çoxlarına örnək olmalıdır. Var olun belə igid oğul sahibi olan ata-ana. Sizlər örnəksiniz. Bu gün Suraxanı rayon icra hakimiyyəti tərəfindən şəhid Mürsəlimizin anım günü yüksək səviyyədə keçirildi. Şəhid ataları, şəhid anaları bizlər sizlərə borcluyuq. Qayıdan torpaqlarımız sizlərin qayıtmayan, canınızdan can gedən oğullarınız hesabına birləşdi. Allah bütün Şəhidlərimizə rəhmət eləsin.

***Cəmilə Babayeva***

# “Forumun kifayət qədər böyük əhəmiyyəti var”




“Bakı Forumu dünyada cərəyan edən vacib prosesləri müzakirə etmək üçün mühüm beynəlxalq platformadır”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Yusif Bağırzadə Nizami Gəncəvi adına Beynəlxalq Mərkəzin təşkilatçılığı ilə 4-6 noyabr tarixlərində keçiriləcək Bakı Forumu haqqında danışarkən deyib. O sözlərinə davam edərək bunları deyib: ”Nizami Gəncəvi Beynəlxalq Mərkəz Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 23 dekabr 2011-ci il tarixli Sərəncamına əsasən 30 sentyabr 2012-ci ildə Gəncə şəhərində keçirilmiş dahi Azərbaycan şairi Nizami Gəncəvinin 870 illik yubiley tədbirində təsis edilmişdir. Azərbaycan Prezidentinin dəstəyi ilə Mərkəz Bakı şəhərində yerləşməklə fəaliyyətini davam etdirən müxtəlif xarici ölkələrin keçmiş dövlət və hökumət başçılarını və nüfuzlu beynəlxalq ekspertləri öz ətrafında birləşdirir.

Avropa qitəsindən 25 ölkədən 53, Amerika qitəsindən 2 ölkədən 6, Asiya qitəsindən 12 ölkədən 15, Afrika qitəsindən 4 ölkədən 5 görkəmli şəxslərin üzvü olduğu Beynəlxalq Mərkəz 2013-cü ildən etibarən Bakı şəhərində keçirilən Qlobal Bakı Forumunun əsas təşkilatçısı kimi çıxış edir. 2013-cü ildən bu günədək artıq 7 Qlobal Bakı Forumu və 42 yüksək səviyyəli toplantı keçirilib. Bu il mayın 20-də isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin ”Cənubi Qafqaz: Regional inkişaf və əməkdaşlıq perspektivləri” adlı videoformatda müzakirəsi keçirilmişdi.

4-6 noyabr tarixlərində keçiriləcək növbəti Bakı Forumu isə müzakirə olunacaq məsələlər baxımından olduqca zəngin və əhatəlidir. Belə ki, forumda müxtəlif panellərdə ”COVID-19-dan sonra yeni dünya nizami”, ”Yeni Dünya İqtisadiyyatı”, ”Səhiyyə və əhalinin vaksinasiyası”, ”Cənubi Qafqaz: regional inkişaf və əməkdaşlıq üçün perspektivlər” və digər mövzular müzakirə olunacaq”.

Politoloq həmçinin açıqlamasında bunu da qeyd edib: ”Mövzulardan da göründüyü kimi Forumun kifayət qədər böyük əhəmiyyəti var və özündə təkcə Azərbaycanı deyil bütün dünyanı düşündürən məsələləri ehtiva edir. Ümumiyyətlə qeyd edim ki, Bakı Forumu dünyada cərəyan edən vacib prosesləri müzakirə etmək üçün mühüm beynəlxalq platformaya çevrilib. Çünki Forumda dünyanın nəhəng intellektual potensialı cəmləşib. Yuxarıda da qeyd etdiyim kimi qurumun üzvləri ölkələrinə, yaxud beynəlxalq təşkilatlara uzun illər rəhbərlik etmiş məşhur dünya siyasətçiləridir. Belə zəngin təcrübənin bir araya toplanması heç şübhəsiz ki, aparılan müzakirələrin də əhəmiyyətini artırır və müzakirə olunan məsələlərlə bağlı müəyyən bir yol xəritəsinin meydana gəlməsinə şərait yaradır.

Bu baxımdan bu dəfəki Forum da bizə həm Azərbaycanın Covid-19-la bağlı aparılan mübarizə ilə bağlı, həm dünyada mövcud olan ”vaksin millətçiliyi”, həm iqtisadi münasibətlər, həm də postmüharibə dövründə regionun gələcəyi ilə bağlı planlar, işğaldan azad olunmuş ərazilərdə yenidənqurma və bərpa işləri, ermənilərin vandallığı və bunun mənəvi, hüquqi nəticələri barədə dolğun məlumatları dünya birliyinə çatdırmaq imkanı verəcək.

Təbii ki, indi Ermənistanla sərhədlərin müəyyənləşdirilməsi, kommunikasiyaların bərpası, ərazi bütövlüyünün tanınması istiqamətində aparılan danışıqlar prosesində dünya siyasətçilərinin də nəzərinə dolğun informasiyaları çatdırmaq çox önəmlidir. Bu baxımdan hesab edirəm ki, Forum bir daha sübut edəcək ki, bu gün Cənubi Qafqaz regionunda yeni reallıqlar yaranıb. 44 günlük Vətən müharibəsində öz ərazi bütövlüyünü bərpa edən Azərbaycan regionda və bütün dünyada sülhün və ədalətin bərqərar olunmasına çalışır”.

***Abutel İlhamqızı***

# YAP Səbail rayon təşkilatı üzrə ”Parlament prospekti 1” ərazi partiya təşkilatının videoformatda hesabat seçki yığıncağı keçirilib




Yeni Azərbaycan Partiyasının (YAP) Səbail rayon təşkilatı üzrə ”Parlament prospekti 1” ərazi partiya təşkilatının videoformatda növbəti hesabat seçki yığıncağı keçirilib. Onlayn iclası açan Ərazi Partiya Təşkilatının sədri, Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev bildirib ki, gündəliyə Ərazi Partiya Təşkilatının 2017-ci ilin fevralından bu günədək fəaliyyətinə dair hesabat və ƏPT-nin sədrinin və sədr müavininin seçilməsi barədə məsələlər daxildir. Hesabatı slaydlar formatında təqdim edən Ərazi Partiya Təşkilatının sədri Adil Vəliyev statistik icmal, təşkilatda təmsil olunan millət vəkillərinin, qadınların və gənclərin say nisbəti, onların fəallıq əmsalı, Milli Məclisin struktur bölmələri üzrə ƏPT üzvlərinin faiz indikatoru, habelə islahatlar çərçivəsində ƏPT-nin fəaliyyətinin təkmilləşdirilməsinə və səmərəliliyinin təmin edilməsinə istiqamətlənmiş yeniliklər barədə ətraflı məlumat verib.

Bildirib ki, təşkilat öz fəaliyyətini əsasən YAP-ın sədri, Azərbaycan Prezidenti İlham Əliyevin dövlət və partiya tədbirlərindəki nitqlərində səsləndirdiyi müddəaların, habelə partiyanın Proqram və Nizamnaməsindən irəli gələn vəzifələrin yerinə yetirilməsi istiqamətində qurub.Adil Vəliyev diqqətə çatdırıb ki, Milli Məclisə partiyamızın dəyərli nümayəndəsi, hörmətli Sahibə Qafarovanın uğurlu rəhbərliyi parlamentin ahəngdar işləməsini təmin edir, ölkə başçısının rəhbərliyi ilə müxtəlif sahələri əhatə edən islahatların davam etdirilməsinə köməklik göstərir. Azərbaycan Parlamenti hazırda özünün ən gözəl, ən mükəmməl dövrlərindən birini yaşayır. Dövlətçilik ruhuna, milli ruha köklənmiş insanlardan ibarət Milli Məclis işini yüksək peşəkarlıq, mənəviyyat və şərəflə görür.

Qeyd edilib ki, hətta pandemiyanın tüğyan etdiyi zamanlarda belə, Milli Məclisin fəaliyyətində ən kiçik axsama belə olmadı, qanunların qəbulu gecikmədi, iclaslarımız təxirə salınmadı. 44 günlük Vətən Müharibəsi dövründə beynəlxalq ictimaiyyəti məlumatlandırmaq məqsədilə parlament diplomatiyası var gücü ilə işlədi, 88 ölkənin parlamentinə, 11 beynəlxalq təşkilata məktublar göndərildi, ard-arda bəyanatlar verildi. Adil Vəliyev diqqətə çatdırıb ki, fəaliyyətimizin əsas istiqamətlərindən biri də Səbail rayon təşkilatının xətti ilə şəhid ailələrinin və qazilərimizin ziyarət edilməsi, habelə rayon təşkilatının təşkil etdiyi müxtəlif tədbirlərdə iştirak, ən əsası isə cənab Prezidentin uğurlu daxili və xarici siyasətinin ictimaiyyət arasında geniş izahı və təbliği olmuşdur.

Onlayn iclasda çıxış edən Ərazi Partiya Təşkilatının üzvləri, Milli Məclisin deputatları Hikmət Məmmədov və Mixail Zabelin Ulu öndər Heydər Əliyevin mütəreqqi ideyalarının daşıyıcısı olan Yeni Azərbaycan Partiyasının keçdiyi yola nəzər salıblar, ölkəmizin qazandığı uğurlardan, Prezident və Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazandığımız qələbənin mühüm əhəmiyyətindən danışıblar, Ərazi Partiya Təşkilatının işini yüksək qiymətləndiriblər. Hesabat səsə qoyularaq qənaətbəxş hesab edilib.

Sonra Ərazi Partiya Təşkilatı sədrinin və sədr müavininin seçilməsi məsələsinə baxılıb.Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev Milli Məclisin sədri Sahibə Qafarovanın təklifi ilə Ərazi Partiya Təşkilatının sədri vəzifəsinə Adil İsrayıl oğlu Vəliyevin namizədliyini irəli sürüb. Səsvermə nəticəsində Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil İsrayıl oğlu Vəliyev sədr, Milli Məclis Rəhbərliyinin Katibliyinin rəisi Teymur Aqil oğlu Tağıyev isə sədr müavini seçiliblər.

İclasda YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdiri Əhliman Tağıyev, YAP Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev çıxış edərək partiyanın fəaliyyətində tətbiq olunan yeniliklərdən danışıblar, həyata keçirilən islahatları yüksək qiymətləndiriblər. Təqdim olunan hesabatın və ərazi partiya təşkilatının fəaliyyətinin qənaətbəxş olduğu bildirilib.

***RƏFİQƏ***

# ”Təhsilin müvafiq pillələri üzrə qapadılmaya gedilə bilər”

“Hal-hazırkı durumda yoluxma faktı gündən-günə artır. Yəni, hər gün bir qədər artım müşahidə edirik və bunun nəticəsi olaraq, əlbəttə müvafiq qabaqlayıcı tədbirlər də alınır. Yəni, ən azından təhsillə bağlı danışsaq, lokal qapadılmalara gedilir, siniflərin qapadılması, ən azı 14 gün karantinə alınması, eyni zamanda, vaksinasiya prosesinə vətəndaşların çağırışı bütün vətəndaşların vaksinasiya prosesinə cəlb olunmaları ilə bağlı mühüm rol oynayır”. Bu sözləri SİA-ya açıqlamasında təhsil məsələləri üzrə ekspert Elçin Əfəndi deyib.



Onun sözlərinə görə, yəni, bütün bunlar o deməkdir ki, bu qabaqlayıcı tədbirlər əgər effekt verməzsə, qarşıdakı vaxtda biz yenidən yoluxmanın sayının daha da kəskin şəkil alacağını müşahidə edəriksə, o zaman artıq qapadılmalar lokal xarakter daşımayacaq: ”Yəni, ola bilsin ki, təhsilin müvafiq pillələri üzrə qapadılma gedilsin. Yəni, ilk olaraq daha çox ali təhsil müəssisələri qapadılmaya gedə bilər, onun ardınca kolleclər. Orta-ixtisas təhsil müəssisələri sonra isə müvafiq olaraq orta ümumtəhsil müəssisələrinin yuxarı sinifləri, əsasən 10-11-ci siniflər və əgər yenə də bunlar effekt verməsə, ondan sonra tam qapadılmaya gedilə bilər”.

Elçin Əfəndi sözlərinə belə davam edib: ”Hal-hazırda isə düzdür bununla bağlı müzakirələr aparılır, hər gün müvafiq olaraq Təhsil Nazirliyi tərəfindən müvafiq tapşırıqlar verilir, qabaqlayıcı tədbirlər görülür. Amma təbii ki, bunlar effekt verməyi halda artıq qapadılma qaçılmaz olacaq. Əgər biz distant təhsil deyil, əyani şəkildə təhsili istəyiriksə, o zaman çalışmalıyıq ki, verilən qaydalara riayət edək. Yəni, hər bir vətəndaş şəxsi gigiyena qaydalarına da xüsusilə riayət etməlidir ki, gələcəkdə bu kimi hallar olmasın”.

”Burada həm də bir məqam ondan ibarətdir ki, şagirdin və ya tələbənin təkcə təhsil müəssisəsində yoluxduğu bəlli deyil. Yəni, ola bilər o ictimai nəqliyyatda və yaxud da hər hansı bir getdiyi kitabxanada, digər yerlərdə yoluxa bilər. Yəni, burada birbaşa təhsil müəssisələrini də günahlandırmaq doğru deyil. Düzdür, təhsil müəssisələrində qapalı şəraitdə dərslər tədris olunur və burada da hər bir təhsil alan, eyni zamanda, təhsil verən qapalı şərait olduğu üçün qoruyucu maskalardan istifadə etməlidir. Yəni, təbii ki, qoruyucu maskalardan istifadə olunması yoluxma sayının artımı ilə nəticələnir. Düşünürəm yəqin ki, əgər bütün bu addımlar effekt verməsə, əlbəttə, qapadılmaya gediləcək. Əgər biz yoluxma sayında artıq aşağı düşülmə ilə bağlı müəyyən nəticəyə nail olsaq, o zaman qapadılma ola bilsin ki, olmayacaq. Gözlənilir ki, sabah brifinq olsun. Brifinqdə yəqin ki, ümumi karantinin vaxtının uzadılması öz əksini tapacaq, amma təhsillə və qapadılma ilə bağlı düşünmürəm ki, hər hansı bir qəti qərar verilmiş olsun”.

***Ayşən Vəli***

# Zəfərə doğru gedən yolun tarixi



## Prezident İlham Əliyev: "Bu qələbəni biz döyüş meydanında qazandıq, danışıqlar masası arxasında yox"

Ötən ilin sentyabrın 27-də Azərbaycan Ordusunun Qarabağda başladığı əks-hücum əməliyyatı böyük uğurlarla müşayiət olundu. 44 gün ərzində xalqımız böyük sevinc yaşadı. Elə ilk gündən başlayaraq, 27 sentyabr tarixində Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı kəndlərinin, Cəbrayıl rayonunun Böyük Mərcanlı, Nüzgar kəndlərinin, Ağdərə və Murovdağ istiqamətlərindəki yüksəkliklərin işğaldan azad olunması qısa bir zamanda xalqımıza böyük qələbənin sevincini yaşamaq əminliyini yaratmışdır. Belə də oldu. Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən təsdiqlənən mükəmməl hərbi strategiya və taktika döyüş meydanında Azərbaycan Ordusunun "Dəmir yumruq" əməliyyatını sürətlə həyata keçirməyə imkan verdi. Hər gün cəbhədən gələn qələbə xəbərlərinə insanlar susamışdılar. Bu xəbərləri illər idi ki, xalqımız gözləyirdi. Azərbaycanın Müzəffər Ordusunun düşməndən əldə etdiyi hərbi qənimətlər və ermənilərin canlı itki verməklə geriyə qaçmaları qələbə xəbərinin yaxında olduğunu təsdiqləyirdi. Azərbaycan Prezidenti İlham Əliyevin mütəmadi olaraq xalqa müraciətləri və müjdəli xəbərlər qələbə ruhunu daha da yüksəldirdi. Tərtər rayonunun Suqovuşan və Talış kəndləri, Cəbrayıl rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy, Quycaq kəndləri, Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndi, Cəbrayıl şəhəri və rayonun Karxulu, Şükürbəyli, Yuxarı Maralyan, Çərəkən, Daşkəsən, Horovlu, Decal, Mahmudlu, Cəfərabad kəndləri və digər şəhərlərin, kənd və qəsəbələrin işğaldan azad olunması bizi Zəfərə doğru apardı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev rəsmi "Twitter" səhifəsində işğaldan azad olunan ərazilərin adlarını qeyd edərək, sonda "Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!" bildirməsi artıq Azərbaycanın işğala son qoyacağından xəbər verirdi.

Ötən ilin 28 oktyabr tarixində Zəngilan rayonunun Birinci Ağalı, İkinci Ağalı, Üçüncü Ağalı, Zərnəli kəndləri. Füzuli rayonunun Mandılı kəndi, Cəbrayıl rayonunun Qazanzəmi, Xanağabulaq, Çullu, Quşçular, Qaraağac kəndləri, Qubadlı rayonunun Qiyaslı, Əbilcə, Qılıcan kəndləri düşmən tapdağından azad olundu.



### "BİZ NƏ QƏDƏR ÇOX MÜDAFİƏ OLUNURUQSA, DAHA ÇOX ƏRAZİLƏRİ AZAD EDİRİK"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ötən ilin oktyabrın 28-də Almaniyanın ARD televiziya kanalına verdiyi müsahibədə bildirdiyi kimi, "Biz onlara döyüş meydanında cavab verəcəyik. Biz şəhərlərə, mülki şəxslərə hücum etmirik, yalnız döyüş meydanında cavab veririk. Əlbəttə, biz özümüzü müdafiə etməliyik. Əgər onlar hücum edirlərsə, əgər onlar itirdikləri mövqeləri geri almaq istəyirlərsə, biz sakit dura bilmərik. Biz özümüzü müdafiə etməliyik. Biz nə qədər çox müdafiə olunuruqsa, daha çox əraziləri azad edirik".

Çox keçmir ki, Cəbrayıl rayonunun Xudaverdili, Qurbantəpə, Şahvələdli, Xubyarlı kəndləri, Zəngilan rayonunun Aladin, Vejnəli kəndləri, Qubadlı rayonunun Kavdadıq, Məmər, Mollalı kəndləri, Cəbrayıl rayonunun Yuxarı Məzrə, Yanarhac kəndləri və onlarla belə kəndlər işğaldan azad olundu və nəhayət, 8 NOYABR tarixində Şuşa şəhəri işğaldan azad olundu. Noyabrın 8-də dövlətimizin başçısı Şəhidlər Xiyabanında Azərbaycan xalqına müraciətində bildirdi: "Əziz həmvətənlər, əziz bacılar və qardaşlar! Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm.

İyirmi səkkiz il işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür! Bu qələbəni biz döyüş meydanında qazandıq, danışıqlar masası arxasında yox". Bu tarixi sevinc göz yaşları ilə qarşılayan Azərbaycan xalqı həmin anları, zamanı heç zaman unutmayacaqlar.

### "ERMƏNİSTAN ARTIQ ÖZ ACI MƏĞLUBİYYƏTİNİ ETİRAF EDİB, ÖZÜNÜ ALÇALDA-ALÇALDA, XALQINI TƏHQİR EDƏ-EDƏ"

"Sentyabrın 27-dən bu günə qədər 200-dən çox şəhər, kənd, qəsəbə işğaldan azad edildi. O cümlədən, Füzuli şəhəri, tamamilə darmadağın edilmiş, bir dənə də salamat bina qoymayıb mənfur düşmən. Cəbrayıl tamamilə dağıdılmış. Qubadlı, Zəngilan tamamilə dağıdılmış. Kəndlər, şəhərlər. Hadrut qəsəbəsi, Suqovuşan qəsəbəsi və bu gün Şuşa şəhəri. Bizim zəfər yürüşümüz davam edir. Hələ də işğal altında torpaqlar var, hələ də döyüşlər gedir. Əgər Ermənistan rəhbərliyi mənim tələblərimə cavab verməsə, sona qədər gedəcəyik. Heç kim bizi dayandıra bilməz. Dünyada elə qüvvə yoxdur ki, bizi dayandıra bilsin. Ermənistan artıq öz acı məğlubiyyətini etiraf edib, özünü alçalda-alçalda, xalqını təhqir edə-edə", - deyə Cənab Prezident bildirmişdir.

9 noyabr tarixində döyüşlər davam edirdi. Füzuli rayonunun Qobu Dilağarda, Yal Pirəhmədli, Yuxarı Yağlıvənd, Dilağarda, Seyid Mahmudlu, Ələsgərli, Mirzəcamallı, Mərdinli, Qaraməmmədli, Hacılı, Saracıq kəndləri, Xocalı rayonunun Dəmirçilər, Çanaqçı, Mədətkənd, Sığnaq, Şuşakənd, Muxtar kəndləri, Xocavənd rayonunun Susanlıq, Domi, Tuğ, Akaku, Azıx, Mets, Cəbrayıl rayonunun Hüseynalılar, Söyüdlü, Aşağı Sirik, Qalacıq, Mollahəsənli, Əsgərxanlı kəndləri, Qubadlı rayonunun Yuxarı Mollu, Aşağı Mollu, Xocik, Qaramanlı, Xəndək, Həmzəli, Mahrızlı, Hal, Ballıqaya, Tinli, Xocahan, Boyunəkər, Qaraqoyunlu, Çərəli kəndləri, Zəngilan rayonunun Keçikli, Ördəkli, Sobu, kəndləri, Bartaz qəsəbəsi, Laçın rayonunun bir neçə kəndi və digər kəndlərin işğaldan azad olunması əlbəttə ki, hələ də qızğın döyüşlərin getdiyindən və Azərbaycan ordusunun gücündən xəbər verirdi. Rəşadətli ordumuzun şücaəti, qəhrəmanların igidliyi, ərənliyi ilə əzəli torpaqlarımız işğaldan azad olundu. 10 noyabr tarixində isə Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin bəyanatına əsasən, Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olunub.

### "SENTYABRIN 27-DƏN BU GÜNƏ QƏDƏR 300-Ə YAXIN YAŞAYIŞ MƏNTƏQƏSİNİN AZAD EDİLMƏSİ İLƏ ERMƏNİSTAN ORDUSUNUN BELİNİ QIRMIŞIQ"

Noyabrın 10-da Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edərək, bu gün ölkəmiz üçün tarixi bir gün olduğunu bildirdi: "Bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulur. Hesab edirəm ki, indicə imzalanmış üçtərəfli bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaqdır. Bu bəyanatı Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri imzalamışlar".

Dövlət başçısı bu bəyanatın bizim şanlı qələbəmiz olduğunu vurğulamışdır: "Hesab edirəm ki, bu bəyanatın imzalanmasının səbəblərindən biri də dünən qeyd etdiyimiz parlaq qələbəmizdir, tarixi qələbəmizdir, Şuşanın işğaldan azad edilməsidir, Şuşa Qarabağın tacıdır! Şuşanın azad edilməsi həm böyük siyasi, həm böyük strateji, eyni zamanda, çox böyük mənəvi məna daşıyır. Biz Şuşaya qayıtdıq, biz Şuşanı qaytardıq, biz Şuşada yaşayacağıq və işğaldan azad edilmiş digər bütün torpaqlarda həyat qaynayacaq. İnsanlar o torpaqlara qayıdacaq, orada yaşayacaq, insanlarımızın 30 illik həsrətinə son qoyulur".

Dövlət başçısının bildirdiyi kimi, bu bəyanatın imzalanmasının səbəbi noyabrın 9-da - Dövlət Bayrağı Günündə bizim növbəti şanlı hərbi qələbəmiz olub: "Çünki noyabrın 9-da 72 yaşayış məntəqəsini Azərbaycan Ordusu işğalçılardan azad edib. Şuşanın azad edilməsi, noyabrın 9-da 72 yaşayış məntəqəsinin azad edilməsi və sentyabrın 27-dən bu günə qədər 300-ə yaxın yaşayış məntəqəsinin azad edilməsi ilə Ermənistan ordusunun belini qırmışıq".

Azərbaycan Ermənistanın belini qırmaqla öz torpaqları düşmən tapdağından azad olundu. Paytaxtımızda açılışı olan Hərbi Qənimətlər Parkı Vətən müharibəsində Ordumuzun gücünün, işğalçı Ermənistanın məğlubiyyətinin göstəricisi oldu. XXI əsrin müharibəsini aparan Azərbaycanın hərbi gücü, qüdrəti 44 günlük müharibə zamanında özünün göstərdi. Ermənilərin döyüş meydanından qoyub qaçdığı atıcı silahlar, ağır texnikalar, raket kompleksləri, hərbi nəqliyyatlar və digər sursatlar qənimətlər sırasında yer alır.

### "BİZ NƏİNKİ XXI ƏSRİN MÜHARİBƏSİNİ NÜMAYİŞ ETDİRMİŞİK, BİZ DÜNYADA HEÇ VAXT OLMAYAN QƏLƏBƏNİ QAZANMIŞIQ"

Azərbaycan tarixi qələbəni 44 gün ərzində əldə etdi. Ali Baş Komandanın, Cənab İlham Əliyevin bildirdiyi kimi, İkinci Qarabağ müharibəsində də bizim gücümüzü göstərdi, müasirliyi göstərdi: "Çünki biz XXI əsrin müharibəsini aparmışıq və bu gün artıq sirr deyil ki, dünyanın aparıcı hərbi məktəblərində İkinci Qarabağ müharibəsindəki əməliyyatlarımız, bizim uğurlarımız, Qələbəmiz öyrənilir. Dünya mətbuatında artıq dəfələrlə məlumat verilmişdir ki, dünyanın aparıcı ölkələri, o cümlədən Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Almaniya və inkişaf etmiş digər ölkələr İkinci Qarabağ müharibəsinin bütün aspektlərini öyrənirlər. Öz ordularını müasir standartlara, müasir tələblərə uyğunlaşdırmaq istəyirlər. Biz nəinki XXI əsrin müharibəsini nümayiş etdirmişik, biz dünyada heç vaxt olmayan Qələbəni qazanmışıq. Çətin relyef şəraitində düşmənin bir neçə istehkamının qarşısında biz peşəkarlıq, məharət, güc, hərbi elm qoyduq və istədiyimizə nail olduq, düşməni torpaqlarımızdan qovduq".

**ZÜMRÜD BAYRAMOVA**

# İnsanlığa qarşı amansız ERMƏNİ TERRORLARI



Terrorizm insanlığa qarşı yönəldilmiş bəladır və minlərlə insan terrorçuların törətdikləri əməllərin acı nəticələrini yaşamışdırlar. Əlbəttə ki, terrorçunun milliyyəti və sərhədi yoxdur. Ermənistan dövlətinin və erməni diasporunun maliyyə və təşkilatı yardımı ilə dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən erməni terrorçu təşkilatlarının Azərbaycana qarşı apardıqları terrorçuluğun törətdiyi əməllərin qanlı izləri bizlərə yaxşı tanışdır. Ermənistanın insan tələfatına nail olmaq məqsədi həyata keçirdiyi terror aktları nəticəsində minlərlə günahsız insan həlak olmuşdur. Tarix boyu özgə torpaqlarına göz dikən və terrorçu əməlləri ilə qınağa çevrilən ermənilər günahsız insanların ölümünə səbəb olublar. Dili hibrit, yəni calaq dili, ərazisi, mədəniyyəti, mətbəxi, tarixi olmayan ermənilər tarixi, irsi, mədəniyyəti ilə dünyanın marağında olan bir dövlətlə Azərbaycanla qonşudurlar. Müasir dünyamız 200 il ilə müqayisədə ciddi şəkildə dəyişmiş olsa da təssüflər olsun ki, erməni cildi dəyişməyib. Ermənilərin hər bir hərəkəti, ümumilikdə siyasəti məkrlidir. Fateh-hökmdar Əmir Teymur erməniləri bir millət kimi yer üzündən silmədiyi üçün gələcəkdə ya alqışlanacağını, ya da lənətləyəcəyi qərarına gələndə bu millətin gələcək tarix üçün nə qədər təhlükəli olacağını bilirmişdir. Azərbaycanlılara qarşı baş verən erməni təxribatları vəhşiliyin, vandal davranışın bariz nümunəsidir. Mülki əhalinin, xüsusilə qadınların və uşaqların, ahılların Ermənistan hərbi qüvvələrinin hədəfinə çevrilməsi onların tarixi kimliyinə söykənir. Vətən müharibəsinə qədər, eləcə də, həmin zamanda erməni terroçuların törətdikləri əməllər dünyanın gözü qarşısında baş verib. Ermənistanın Azərbaycana hərbi təcavüz nəticəsində, insan hüquqları kobudcasına pozulub, etnik təmizləmə siyasəti və terror aktları günahsız azərbaycanlının həyatına son qoyulub. 1994-cü ildə atəşkəs rejiminin elan olunmasına baxmayaraq, ermənilərin Azərbaycanda uşaqları qətlə yetirmələri hələ də davam edirdi. Bu, nə insanlığa, nə də beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən hüquqi normalara sığır.

## 5-6 YAŞLI UŞAQLARI, DİNC ƏHALİNİ QƏTLƏ YETİRƏN ERMƏNİLƏR FAŞİSTLƏRİ DƏ GERİDƏ QOYMUŞDULAR

Erməni təcavüzkarları Azərbaycanın Xocalı şəhərində bəşəriyyət tarixində ən qanlı faciələrlə bir sırada duran Xocalı soyqırımını törətməklə öz terrorçu, təcavüzkar simasını ortaya qoydu. 1992-ci il yanvarın 16-da keçirilən "Xüsusi müşavirə" sözügedən planın tərtib edilməsinə xidmət edib. "Xüsusi müşavirə"də "Hoydad" və "ASALA" erməni terror təşkilatlarının nümayəndələri ilə yanaşı, Xankəndidə yerləşdirilmiş ruslara məxsus 366-cı motoatıcı alayın komandiri polkovnik Zarviqorov da iştirak edib. Xocalı soyqırımını ilə ermənilər Xocalının 1992-ci il 26 fevralda yer üzündən silinməsini və məhv olmasını reallaşdırdılar. Xocalı bir gecənin içərisində yerlə yeksan olundu. Cinayətkar erməni qoşunlarının vəhşiliyi nəticəsində 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq, 70 qoca amansızlıqla qətlə yetirildi, 487 nəfər şikəst oldu, 1275 dinc sakin girov götürüldü, onlardan 150 nəfərin taleyi isə hələ də məlum deyil. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini itirdi. Bu əməllərin qabaqcadan düşünülmüş qaydada, milli əlamətinə görə insanların tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə törədilməsi beynəlxalq hüquqa əsasən, Xocalı faciəsinin məhz soyqırımı olduğunu təsdiq edir.

Xocalı qırğınının şahidi olmuş fransız jurnalisti Jan İv Yunet məqaləsində belə yazırdı: "Biz Xocalını müdafiə edənlərin, yüzlərlə dinc sakinlərin - qadınların, uşaqların, qocaların tanınmaz hala salınmış meyitlərini öz gözlərimizlə gördük  Ermənilər bizim vertolyotu da atəşə tutduğundan çəkilişi sona çatdıra bilmədik. Amma yuxarıdan gördüklərimiz törədilən vəhşilikləri təsəvvürə gətirməyə kifayət edirdi. Bu, tükürpərdici mənzərə idi. Mən müharibələr, alman faşistlərinin qəddarlığı haqqında çox eşitmişdim. Lakin 5-6 yaşlı uşaqları, dinc əhalini qətlə yetirən ermənilər faşistləri də geridə qoymuşdular  Növbəti kəndi zəbt edərkən bir erməninin sağ-salamat uşağı götürüb iki yerə böldüyünü gözlərimlə gördüm. Sonra həmin bədənin bir hissəsi ilə ananın sifətinə, başına o qədər döydü ki, övladının al-qanına bulaşmış qadın havalanıb gülməyə başladı".

Ermənilər bu qəddar terror aktı ilə öz vəhşi xislətlərini bütün dünyaya bəyan etdilər və həmin gün Xocalıda divan tutulmuş cansız bədənlər və ruhlar qaldı. Artıq Xocalı faciəsinin soyqırımı olması faktı dünyanın bir çox ölkələrinin və beynəlxalq təşkilatların qərarlarında, qətnamələrində əksini tapır. Meksika, Kolumbiya, Peru, Pakistan, Bosniya və Herseqovina, Rumıniya, Çexiya, İordaniya, Honduras, Qvatemala, Panama, Sudan parlamentləri, eləcə də, ABŞ-ın ştatlarını qanunverici orqanları və İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımını tanıyan və pisləyən sənədlər qəbul ediblər. Beynəlxalq hüquqa görə, soyqırımı sülh və bəşəriyyət əleyhinə yönələn əməldir və ən ağır beynəlxalq cinayət sayılır. BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 saylı qətnaməsi ilə qəbul edilən və 1951-ci ildən qüvvəyə minən Konvensiyada soyqırımı cinayətinin hüquqi əsası təsbit edilib. Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı həmin Konvensiyada təsbit edilən soyqırımı cinayətinə aid bütün əməllər tətbiq olunub.Ermənistan silahlı birləşmələri tərəfindən 1992-ci il fevralın 17-də törədilən Qaradağlı faciəsi zamanı isə səkkizi məktəbli olmaqla 91 nəfər dinc sakin qətlə yetirilib, 146 uşaq yetim qalıb.

## ERMƏNİLƏR BMT-NİN UŞAQ HÜQUQLARI HAQQINDA KONVENSİYASININ VƏ DİGƏR SƏNƏDLƏRİN MÜDDƏALARINI KOBUD ŞƏKİLDƏ POZUB

Bütün bu və digər soyqırımı, terrorları törədən ermənilərin son illərdə və 44 günlük Vətən müharibəsi dövründə törətdikləri vəhşi əməlləri faşist ideologiyasının sahibi olmalarının təsdiqidir. İnsan hüquqları sahəsində mövcud beynəlxalq sənədlərə məhəl qoymayan Ermənistan müharibə zamanı mülki əhalinin qorunması haqqında 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyasının, BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının və digər sənədlərin müddəalarını kobud şəkildə pozmaqda davam edib.

2011-ci il martın 8-də düşmən snayperi tərəfindən səkkiz yaşlı Fariz Arzu oğlu Bədəlov qətlə yetirildi. 2016-cı il Aprel döyüşlərində düşmənin Tərtərin Həsənqaya kəndini atəşə tutması nəticəsində 2000-ci il təvəllüdlü Kəlbəcər sakini Həsənli Turanə Kamandar qızı dünyasını dəyişdi. 2017-ci ilin iyul ayının 4-də Ermənistan silahlı qüvvələri tərəfindən Füzuli rayonunun Alxanlı kəndində məskunlaşan mülki əhalinin yaşadığı yaşayış məntəqələrinin və mülki obyektlərin qəsdən 80 və 102 millimetrlik minaatanlardan və dəzgahlı qumbaraatanlardan atəşə tutulması nəticəsində, 1967-ci il təvəllüdlü yaşlı qadın Allahverdiyeva Sahibə və onun 2 yaşlı qız nəvəsi Quliyeva Zəhra həlak oldular. Təbii ki, mülki şəxslərin hədəfə alınması qəbuledilməzdir.

Bu və ya digər faktlar Ermənistanın Azərbaycanın mülki əhalisinə, xüsusilə uşaqlara qarşı vandalizminin sonu deyildi. 44 günlük Vətən müharibəsində xalqımız erməni terrorlarının daha acı nəticələrini yaşamış oldular. İşğalçı Ermənistan silahlı qüvvələri oktyabrın 11-də cəbhə bölgəsindən və münaqişə zonasından kənar yerləşən Gəncənin mərkəzi hissəsində yerləşən yaşayış binalarını raket atəşinə tutması nəticəsində 3-ü qadın olmaqla 9 nəfər həlak oldu, 16 qadın, 6 azyaşlı olmaqla 35 nəfər yaralandı. 17 oktyabrda gecə saatlarında Gəncə şəhəri sayca üçüncü dəfə terrora məruz qalaraq ballistik raket atəşinə tutuldu. Bu terror nəticəsində 3 azyaşlı uşaq, 4 qadın olmaqla 13 nəfər həyatını itirdi, 5-i azyaşlı və 20-i qadın olmaqla 48 nəfər ağır şəkildə yaralandı, 2 uşaq itkin düşdü. Qəhrəman Azərbaycan ordusunun qarşısında dayana bilməyən Ermənistan rəhbərliyinin terror əməllərinin qurbanı olan əhali arasında qadın və uşaqların yer alması ermənilər tərəfindən tarixən törədilən qətliamların növbəti təzahürüdür.

Vurğulamaq yerinə düşər ki, müharibə dövründə Goranboy rayonunun Qızılhacılı kənd sakini 2011-ci il təvəllüdlü Həsənov Elcan Elgün oğlu və Ağcabədi şəhərindən olan 2015-ci il təvəllüdlü İbrahimova Ayan Rövşən qızı yaralandı. Erməni terroru nəticəsində Ağcabədi rayonunun Taynaq kənd sakini, 2006-cı il təvəllüdlü İsgəndərov Fərid Dilafət oğlu, Naftalan rayonunun Qaşaltı kənd sakinləri 2007-ci il təvəllüdlü Şəhriyar Qurbanov və 2006-cı il təvəllüdlü Fidan Qurbanova həlak oldular.44 günlük Vətən müharibəsi dövründə erməni hərbçiləri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə Konvensiyaları və onların Əlavə Protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq Azərbaycanda mülki əhalinin sıx yaşadığı məntəqələrə zərbələr endirib. Artilleriya atəşi nəticəsində dinc sakinlərin evləri dağılıb, infrastruktura ciddi ziyan dəyib.Ermənistan silahlı qüvvələrinin raket və artilleriya atəşinə məruz qaldığı yaşayış məntəqələrindən biri də Bərdə şəhəridir. Bərdə şəhəri 5, 8, 27, 28 oktyabr və 7 noyabr tarixlərində raket və ağır artilleriya hücumlarına məruz qalıb. 2020-ci il oktyabrın 5-də Bərdə şəhərinin mərkəzi küçələrinə və mərkəzi xəstəxananın yaxınlığına düşmüş raket mərmisinin qəlpələrindən 2 nəfər həlak olub, 6 nəfər yaralanıb, mülki infrastruktura külli miqdarda ziyan dəyib. Ümumilikdə isə Bərdə şəhərində törədilən terrorlar nəticəsində 28 nəfər həlak olub, 108 nəfər yaralanıb.

Ermənistan silahlı qüvvələrinin Azərbaycanın dinc sakinlərini məqsədyönlü şəkildə hədəf seçərək mülki əhalini və yaşayış massivlərini raket atəşinə tutması insanlıq əleyhinə yönəlmiş cinayətdir. Bütün dünyanın gözü önündə baş verən, insanlığa qarşı barbarlıq və vəhşiliyi açıq şəkildə əks etdirən bu terror hadisələri beynəlxalq humanitar hüququn norma və prinsiplərinə ziddir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "Füzuli Beynəlxalq Hava Limanı ümumilikdə Azərbaycanın inkişafına böyük töhfəsini verəcək"

**"Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Qarabağa ikinci səfəri, səfərləri çərçivəsində səsləndirilən fikirlər bir daha bütün dünyaya göstərdi ki, Türkiyə-Azərbaycan birliyi sarsılmazdır, ağır və sevincli günlərdə bir-birinin yanındadır. Və ən əsası isə, bu gün Füzuli Beynəlxalq Hava Limanı bərpa olunan Qarabağın, Şərqi Zəngəzurun və ümumilikdə Azərbaycanın inkişafına böyük töhfəsini verəcək". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Məşhur Məmmədov bildirib.**

Məşhur Məmmədov bildirib ki, qələbəmizdən bir il keçdiyi az bir müddətdə işğaldan azad olunmuş torpaqlarımızdı böyük quruculuq və bərpa işləri sürətlə davam edir: "Bu gün işğaldan azad edilmiş ərazilərdə ən müasir texnologiyaların əsasında olduqca qısa zamanda genişmiqyaslı bərpa və yenidənqurma tədbirlərinin həyata keçirilməsi Azərbaycan Prezidenti İlham Əliyevin məqsədyönlü siyasətinin, Azərbaycan dövlətinin gücünün göstəricisidir. Azərbaycan artıq 8-9 aydır ki, postmüharibə dövrünün reallıqlarını yaşamaqdadır. Xüsusilə, işğaldan azad edilmiş ərazilərdə müasir yol-nəqliyyat infrastrukturunun qurulması ilə bağlı layihələrin icrası intensiv şəkildə davam etdirilir. Bu baxımdan Füzuli Beynəlxalq Hava Limanının açılması qələbəmizin davamıdır".

Millət vəkili bildirib ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın açılış mərasimində iştirak etməsi bu hadisənin nə qədər əhəmiyyətli və tarixi xarakter daşıdığını göstərir: "Türkiyə və Azərbaycan hər zaman bir-birinin yanında olub. Bu gün qardaş ölkə ilə bütün sahələrdə əlaqələr davamlı yüksələn xətt üzrə inkişaf edir, keyfiyyətcə yeni müstəviyə keçməkdədir. Vətən müharibəsi başlayan ilk saatlardan Türkiyə Prezidenti Azərbaycanla həmrəyliyini ifadə etdi. Bu, Azərbaycanın haqq işinə müdaxilə etmək iddiasında olan Ermənistanın havadarlarına bir mesaj idi. Qardaş ölkənin bütün dövlət strukturları Azərbaycanın Qələbəsi üçün bütün sahələrdə böyük əzmkarlıq göstərdilər, beynəlxalq təzyiqlərə baxmayaraq, qardaşlıq dəstəyi mövqeyindən geri çəkilmədilər. Ötən gün baş tutan açılış mərasimində qardaş ölkənin liderinin iştirak etməsi bu həmrəyliyin məntiqi davamıdır".

Milli Məclisin deputatı bildirib ki, Azərbaycan və Türkiyə prezidentləri tərəfindən təməli qoyulan Zəngəzur dəhlizi - Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu bölgə ilə yanaşı, bütün region ölkələri üçün əhəmiyyətli olacaq, iqtisadi əlaqələrin inkişafına mühüm töhfələr verməklə yanaşı, həm də bütün dünyaya nümunə olan Azərbaycan-Türkiyə dostluğunun, qardaşlığının sarsılmazlığı bu günümüzün reallıqlarının göstəricisidir. Və bu gün atılan hər bir addımda, irəli sürülən təşəbbüslərdə, reallığa çevrilən layihələrdə bu birliyin təzahürlərini görür və bundan qürur hissi keçiririk. 44 günlük İkinci Qarabağ savaşı bir daha iki dost, qardaş ölkənin sevincinin də, kədərinin də bir olduğunu, daim bir-birindən güc aldıqlarını nümayiş etdirdi. Azərbaycana qardaş dəstəyini göstərən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Vətən müharibəsinin başlandığı ilk saatlardan dünyaya "Azərbaycan tək deyil" mesajını ünvanladı. Müzəffər Ali Baş Komandanın qətiyyəti, rəşadətli Ordumuzun gücü sayəsində 44 günlük İkinci Qarabağ müharibəsinin hər gününün tariximizə yazdığı Qələbə səhifələri Azərbaycan qədər də Türkiyəni sevindirdi. Küçə və meydanları iki dost ölkənin bayraqları bəzədi. Bu gün isə işğaldan azad edilmiş torpaqlarımızda bayraqlarımızın birgə dalğalanmasının şahidiyik. Və bu gün Azərbaycan və Türkiyə Prezidentlərinin iştirakı ilə Füzuli Beynəlxalq Hava Limanının açılışı, Zəngilanda "Ağıllı kənd" layihəsi çərçivəsində görülən işlərlə tanışlıq və mətbuata birgə bəyanatları, Zəngəzur dəhlizinin - Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun, Zəngilan rayonunda "Dost Aqropark"ın təməlinin qoyulması və sair kimi tarixi hadisələr bu birliyin növbəti göstəricisidir. "Bu tarixi biz birlikdə yazırıq, necə ki, bütün dövr, müharibə dövrü ərzində birlikdə idik, bu gün də bir yerdəyik", - söyləyən Azərbaycan Prezidenti təməli qoyulan Zəngəzur dəhlizinin bütün türk dünyasını birləşdirəcəyini qəti və inamlı qeyd etdi. Həmçinin Zəngəzur dəhlizinin 2023-cü ilə qədər açılışının nəzərdə tutulduğunu bildirdi. Göründüyü kimi, bütün bu uğurlu nəticə qısa zamanda görülən işlərin reallığıdır". Məşhur Məmmədov onu da bildirib ki, Füzuli Beynəlxalq Hava Limanının böyük rolu olacaq: "Ən başlıcası isə bu hava limanı Zəngəzur dəhlizinin bərpası nəinki Azərbaycanın, həmçinin regionun iqtisadi inkişafına böyük töhfələr verəcək. Azərbaycan və Türkiyə liderlərinin Zəngilanda verdikləri bəyanatlar isə bir daha iki qardaş ölkənin xalqlarının sarsılmaz birliyinin real təcəssümüdür. Bir sözlə, Türkiyə Prezidentinin ölkəmizə növbəti səfəri, verilən bəyanatlar dünyaya ünvanlanan birlik və həmrəylik mesajıdır".

***RƏFİQƏ HÜSEYNOVA***



# Rəsul Quliyev Əli Kərimlinin "dəli" olduğunu sübut etdi

## Sabiq spiker: "Adam bilmir ağlasın, yoxsa gülsün"



**Ölkə parlamentinin sabiq spikeri, hazırda ABŞ-da yaşayan Rəsul Quliyev AXCP sədri Əli Kərimli ilə bağlı illər əvvəl baş vermiş hadisəni xatırlayaraq onun bu gün də ucuz təfəkkürlü siyasətbaz olmasına işarə edib. Keçmiş spikerə görə, bu gün onu sosial şəbəkələrdə hədəfə alanların çoxu, məhz Əli Kərimlinin sifarişləri ilə fəaliyyət göstərən şəxslərdirlər və bu baxımdan, onların rəhbərlərinin Əli Kərimli olması onu təəccübləndirmir.**

Rəsul Quliyev xatırladır ki, ölkə parlamentinə spikerlik etdiyi vaxtlarda Milli Məclisdə müxalifətdən 8-9 deputat var idi və onlar özlərini siyasətçi hesab edirdilər.

### "Onları biyabır etmişəm"

"Bir nəfər deyə bilməz ki, söz istəyib, verməmişəm. Həmişə onlara çıxış etmək imkanı yaratmışam. Sonra onları biyabır etmişəm, çıxış etməyə həvəsləri olmayıb, çünki gic-gic şüarlar səsləndirirdilər", deyə o xatırladıb.

Sabiq spiker çoxunun çıxış etməyə cəsarətlərinin çatmadığını deməklə yanaşı xatırladıb ki, həmin vaxtlar o, müxalifətə tövsiyə edirdi ki, şüar səsləndirməsinlər yox, konkret təklif ortaya qoymaq lazımdır. Və bu xüsusda AXCP sədri Əli Kərimli daha çox qabarıq görünməyə çalışırdı.

Rəsul Quliyev AXCP sədri haqqında maraqlı xatırlatma da edib və belə hadisələr haqqında çox faktlar olduğunu bildirib. Yəni bu gün özlərini düşərgədə "ana müxalifət" adlandırıb zorla ictimai rəyə sırıyanların əksəriyyətinin vaxtilə hansı oyunbazlıqlardan çıxdıqlarını hər an açıqlaya bilər. Ona görə də başlayıb Əli Kərimlidən.

### "Gic-gic danışan belə adama nə cavab verəsən?!"

SİTAT: "O zamanlar Azərbaycan kreditlə bağlı Yaponiya ilə danışıqlar aparırdı. Parlamentin iclasında Əli Kərimli söz istədi, verdim. Dedi ki, Yaponiyadan kredit niyə almalıyıq, kimdir onlar? Adam bilmir ağlasın, yoxsa gülsün. Dəlidir, nədir?! Yəqin, yaponların boyuna baxıb belə düşünüb... Yaponiya o dövrdə dünyada ABŞ-dan sonra ikinci "derjava" idi. Belə adama nə cavab verəsən?! Dedim, get, tanış ol, gör Yaponiyanın hansı imkanları var. Onlar bizə kredit versəydilər, sevinməli idik. Yaponiya da elə-belə kredit vermir axı...", keçmiş spiker Əli Kərimli haqqında fikirlərini xatırlayarkən bildirib.

Çox yəqin ki, onun bu xatırlatmaları, yəni Əli Kərimlini ifşa etməsi cəbhəçilərin xətirlərinə dəyib və dərhal AXCP sədrinə bu barədə donos çatdırılıb. O da öz növbəsində "Rəsul Quliyevi söyün" əmrini verib. Amma AXCP sədri, həqiqətən də, o qədər ucuz təfəkkürə malik olan fərddir ki, onu ifşa edənləri söydürməklə əsl həqiqətlərin üzə çıxmayacağını düşünür. Amma göründüyü kimi yanılır və bu faktı məhz Rəsul Quliyevin timsalında, daha dəqiq desək, Əli Kərimlini ifşa etməsində görmək mümkündür.

***Rövşən RƏSULOV***

# "Nar" qazi müəllimlər haqqında kitabın çapına dəstək olur

**"Nar" 44 günlük Vətən müharibəsində iştirak etmiş müəllimlərin qəhrəmanlıqlarından bəhs edən kitabın çapına dəstək olacaq. Kitabda Vətən müharibəsindən sonra Bakı Şəhəri üzrə Təhsil İdarəsi ilə "Qafqazinfo" xəbər portalının "Qəhrəman müəllimlərimizi tanıyaq" layihəsi çərçivəsində hazırladığı 38 reportajı toplanacaq. Qeyd edək ki, bu yazılar cəmiyyətdə böyük marağa səbəb olmaqla yanaşı, şagirdlərin hərbi vətənpərvərlik ruhunda yetişməsinə töhfə verib.**

Kitab ilkin olaraq 2000 tirajla, təxminən 150 səhifə olmaqla, 4 rəngdə nəfis şəkildə nəşr olunacaq. Kitabın ödənişsiz olaraq həm Bakı şəhəri üzrə məktəblərə, həm də ölkənin digər məktəblərinə paylanılması nəzərdə tutulur. Türkiyədə yüksək keyfiyyətlə dərc olunacaq kitabın təqdimatının Zəfər Günü ərəfəsində keçirilməsi planlaşdırılır. Qeyd edək ki, layihənin məqsədi qazi müəllimlərimiz haqqında məlumatın geniş yayılması və onların şücaətinin gələcək nəsillərin tərbiyəsinə töhfə verməsidir.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 91%-ni əhatə edir və 8780-dan artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.





# Küçə mədəniyyəti, yoxsa mədəniyyətsizliyi?

**"Küçə mədəniyyəti" bəzilərimiz üçün ya tanınmış xadimlərin adlarının küçələrimizə verilməsi, ya reklam stendləri ilə bəzədilməsi, ya da ən pis halda rep musiqisi ilə assosiasiya olunur. Daha geniş anlam kəsb edən "küçə mədəniyyəti" isə əslində çox kiçik şeylərdən başlanır. Çoxumuzun bəlkə də ağlına gəlmir ki, küçədə qışqıra-qışqıra danışmaq, söyüş söymək, əlindəki yemək qalığını və ya digər tullantını hara gəldi tullamaq, çeynənmiş saqqızı küçənin ortasına atmaq, hələ bu azmış kimi, hər iki addımdan bir yerə tüpürmək ədəbsizlik, mədəniyyətsizlik etmək olmaz.**

Bu kiçik şeylər bir çox insanlar üçün o qədər adiləşib ki, artıq hər kəs küçədə, insanların içərisində yolun ortasına tüpürməyi normal qəbul edirlər. Mədəniyyət uşaqlıq yaşlarından insanın yaratdığı və nəsildən-nəsilə ötürdüyü maddi və mənəvi dəyərlərdir. Əslində isə mədəniyyətli olmaq özünüdərkdən irəli gəlir ki, bu da milli şüurun inkişafı ilə bağlıdır. Onu da unutmamalıyıq ki, biz cəmiyyətdə yaşayırıq. Erkən yaşlarından hər birimiz ictimai nəqliyyatda yol hərəkəti qaydalarını və davranış normalarını bilməliyik.

Təmizlik hər insan üçün vacib xüsusiyyət, sağlamlığının ən önəmli şərtidir. Bunun üçün də insan özü ilə yanaşı, ətrafını da təmiz saxlamalıdır. Evinin, geyiminin, yeməyinin təmizliyinə diqqət yetirdiyi kimi ətrafının, getdiyi küçənin, parkın, dükanın da təmizliyinə riayət etməlidir.

Bakıda insanların təmizliyə riayət etməməsi, küçədə gedərkən, hətta avtomobilin pəncərəsindən zibil atması, şəhərdə zibil qablarının azlığından dəfələrlə yazılmasına baxmayaraq hələ ki, bu sahədə problemlər tam həllini tapmayıb. Bizim bugünkü mövzumuz isə digər bir amilə yönəlib ki, bu da yerə zibil atmaq qədər qeyri-etik bir hərəkətlə bağlıdır. Çox təəssüf ki, bu gün paytaxtın küçələrində yol gedərkən yerə baxmamağa çalışırıq. Çünki hər addımda tüpürcək görürük. Bir çox insanlar yolda, pilləkənlərdə, hətta metro stansiyalarında da tüpürməkdən çəkinmirlər. Xəstəlik yaymaqları bir yana, həmin yolun, küçənin, metronun hamıya aid olduğunu düşünmürlər belə.

Mütəxəssislərin fikrincə, yerə tüpürməklə yaranan xəstəliklər sırasında tənəffüs yolu ilə keçən vərəm, bronxit, qrip kimi xəstəliklər yer alır. Eləcə də psixoloji baxımdan tüpürmək hərəkəti insanlarda diksinmə, əsəbilik, stress kimi amillərə səbəb olur. Onu da qeyd edək ki, cəmiyyətin səviyyəsi baxımından tüpürmək, az inkişaf etmiş ölkələrdə müşahidə edilən bir davranış şəkli mədəniyyətsizlik kimi qəbul edilir.

Yerə tüpürənlərin sayı bu gün keçmişə baxdıqda daha da çoxalıb deyirlər. Ancaq keçmişə baxsaq, bu pis vərdiş əvvəlki dövrlərdə də olub. Hətta bəzi ölkələrdə sözlə, pul cəzası ilə bu pis vərdişin qarşısını ala bilməyənlər başqa üsul tətbiq ediblər. Belə ki, dövlətdən maaş alan bir qrup işçi əllərində küçə-küçə kül gəzdirir və yolda rast gəldikləri tüpürcəyin üzərinə tökürmüşlər. Beləliklə, yoldan keçən insanları iyrəndirən pis zərərlərin ortadan qaldırılmasını təmin edirmişlər. Hətta hazırda da bəzi ölkələrdə bununla bağlı "Yerə tüpürməyin!" sözləri yazılmış lövhələrə rast gəlmək mümkündür. Bəlkə də bu insanlar küçələrdə etdikləri bu hərəkətlə bir sıra xəstəliyin səbəbkarı olduqlarını düşünsələr, özlərinin də xəstələnmələrinə yol açacaq bu davranışlardan imtina edərdilər. Onu da qeyd edək ki, bu cür hərəkəti edənlər, demək olar ki, ancaq kişilərdir. Hətta belə insanların nəinki yoldan keçərkən, eyvanlardan aşağı siqaret kötüyü atdığının, tüpürdüyünün şahidi oluruq.

## Niyə etiraz edilmir?

Bu gün çoxları həmin kobud hərəkətləri edən insanların yanından sakitcə keçib gedir, etiraz bildirmirlər. Xarici ölkələrdə ictimai qınağın önəm kəsb etməsinə baxmayaraq, bu hələ ki, bizdə reallaşmayıb. Bu da təsadüfi deyil. Əgər küçəyə zibil atan, yaxud tüpürən bir insana yaxınlaşıb bu hərəkəti ilə bağlı fikir bildirsən, onun sərt baxışları, qışqırığı ilə rastlaşacaqsan. Hətta hərəkətinə bəraət qazandırmağa çalışacaq. Ancaq ictimai qınağın önəm kəsb etdiyi ölkələrdə insanlar hansısa tənqidə məruz qaldıqda bundan nəticə çıxarırlar. Bu gün ölkədə yerə zibil atılmasına qarşı müvafiq cəza növü olsa da, dəfələrlə küçədə gedən vətəndaşın, avtomobildəki sürücünün, hətta metro stansiyalarında insanların yerə zibil atdıqlarının şahidi oluruq.

Maraqlı bir fakt isə odur ki, alimlərin fikrincə, insanlar tüpürməklə həm də özlərinə ziyan vururlar. Belə ki, tüpürcək dişləri çürüməkdən qoruyur. Sağlam bir insanın ağzında gündə 500-1500 millilitr tüpürcək ifraz edilir ki, bu da mikroorqanizmlərin diş səthindən uzaqlaşdırılmasını, mexaniki təmizləməni təşkil edir. Ağızda tüpürcəyin azalması "ağız quruluğu" kimi dəyərləndirilir, bu zaman diş çürüklüyü və dildə çatlar yaranır. Beləliklə, tüpürcək dişlər üzərinə bakteriya yığılmasının qarşısını alaraq ağız florasını tənzimləyir.

## Xaricdə təmizlik cərimələri hansılardır?

Əgər faktlara nəzər salsaq, görərik ki, bu gün bir sıra ölkələrdə ətrafı çirkləndirmək, o cümlədən yerə tüpürməklə bağlı müxtəlif cəza növləri tətbiq olunur. Belə ölkələrdən biri olan İngiltərənin paytaxtı Londonda türklərin sıx yaşadıqları Enfild məhəlləsi ölkədə yerə tüpürmənin cəzalandırıldığı ilk bölgə olub. 2011-ci ildə çıxan qərarla küçəyə tüpürərkən yaxalananlara 80 funt-sterlinq pul cəzası kəsilir. Yerə tüpürərkən yaxalanan insanlar verilən cəzanı ödəmədikləri halda 5 min funt-sterlinq cərimə ilə üzləşirlər.

Dünyanın ən kiçik ölkələrindən olan Sinqapurda da yerə tüpürmək, zibil atmaq kimi gərəksiz hərəkətlərə görə insanlar cəza alırlar. Təkcə yerə tüpürməyə görə vətəndaşları 500 dollar məbləğində cəza gözləyir. Bu baxımdan ölkə sanki kiçik və təmiz bir evi xatırladır.

Qazaxıstanda saqqız çeynəyib yerə atan, tüpürən, ətrafı çirkləndirən, ətrafı narahat edən insanları isə üç gün həbs cəzası gözləyir.

Bu sahədə cəza tətbiq olunan ölkələrdən biri də Almaniyadır ki, burada yerə tüpürənləri 20 avro məbləğində cəza gözləyir. İspaniyada yerə tüpürmək qanunla cinayət sayılır.

Çində yerə tüpürən insanlara 800 dollar məbləğində cərimə tətbiq edilir.

## Bəs, bu cür sosial bəlaların qarşısını almaq üçün nə etmək lazımdır?

**Məsələ ilə bağlı SİA sosioloq**



**Əhməd Qəşəmoğlunun fikirlərini öyrənib:** "Həmişə hər bir xalqın, ölkənin inkişaf səviyyəsi küçədəki insanların davranış tərzi ilə, davranış mədəniyyəti ilə müəyyən olunur. Əhalinin küçədə davranışı həm ölkənin əhalisinin özü üçün, həm də ölkədə daha rahat yaşamağa, daha yaxşı hiss etməyə kömək edir. Çünki bir tərəfdən də xarici ölkələrdən gələnlər ağlında ölkə haqqında ciddi fikir yaranır. Davranışı formalaşdıran 4 mühüm amil var: insanın şəxsi keyfiyyətləri, mühit, aldığı informasiyalar və üstünlük verdiyi dəyərlər. Bütün bunları nəzərə alaraq, ölkədə davranışı tənzimləmək üçün çox gözəl mexanizmlər, texnologiyalar hazırlamaq olar. Amma bu sahədə ciddi çalışan qurum yoxdur. Əsasən ailədən başlamaq lazımdır. İnsanı uşaq vaxtında istiqamətləndirmək lazımdır. Ümumiyyətlə məktəblərdə, baxçalarda maarifləndirmə təlimləri aparılmalıdır. Televiziya və kütləvi informasiya vasitələrimiz bu sahədə ciddi addımlar atmalıdır".

**Etika Akademiyasının rəhbəri Günel İbrahim** mövzu ilə



bağlı bildirib ki, təmizlik kiçik yaşlardan aşılanır. Uşaq cəmiyyət mədəniyyətini mənimsədikdə böyüklərin necə hərəkət etdiyini müşahidə edir. Çöl dediyimiz Vətən torpağıdır. Evimizin kəndarıdır. Zibil, tullantı psixologiyası ilə mübarizə aparmalıyıq. Bu insani davranış, təbiətə qarşı olan borcumuzdur. Mədəniyyət insanın daxilindədir və tullantını küçəyə, çaya, yerə atırsa, dəyərlərində cılızlıq var. Çöldə olan zibil orada yaşayan millətin mədəniyyət səviyyəsini göstərir. Gəlin unutmayaq ki, küçələrimizin təmizliyində işləyən analarımız, bacılarımızdır. Hər yerə atılan zibil itmir. Onu bir Azərbaycan qadını əziyyətlə təmizləyir".

**Psixoloq Aytən Ələkbərova məsələ ilə bağlı qeyd edib ki, şəxsiyyətin bir toplumun üzvü kimi bəzi sosial obyektlərə də münasibəti tamamilə fərqlidir:** "Yəni burada sosial əxlaqın özünün tənzimlənməsi, davamlılığı prosesi tamamilə ardarda gedir. Biz ailədə övladımızı əgər tərbiyə ilə yetişdirmək istəyiriksə, mütləq şəkildə övladımıza hörmət etməliyik. Övladımıza olan hörmətimiz ona verdiyimiz ən gözəl tərbiyədir. Ən gözəl tərbiyə yolundan biri isə biz davranışlarımızda göstərdiyimiz mə-



qamdır. Yəni burada artıq təbliğat psixologiyası şəxsiyyətin müəyyən vəziyyətlərdə davranışını dəyişmək və normal şəkildə özünü göstərməsidir. Məsələn biz burada birbaşa xarakterin bazar tipinə yönələk. Çünki burada özünü insan kimi qiymətləndirən, özünü uğurlu şəkildə sata və dəyişə bilən insanlardır. Hansı ki, burada biz övladımıza bu yerə düşüb, bunu mütləq yerdən götür demirik. Biz etdiyimiz hərəkətlərlə ona tərbiyə veririk. Məsələn əgər, biz avtomobildə almanı yeyib daha sonra küçəyə atırıqsa, demək ki, bizim övladımız bizdən bu cür tərbiyəni götürür. Ümumiyyətlə insanların inkişaf etməsində biz birbaşa uşaqlıq vaxtından başlayaraq küçə mədəniyyətini, küçədəki etik davranışları təbliğat psixologiyası ilə aparsaq, psixoloji olaraq artıq insanlar buna adət etmiş olacaq. Nəticə etibarilə təbii olaraq sabah cəmiyyətdə bu cür narahatlıq kəsb edən halların qarşısını almış olacayıq".

***Arzu Qurbanzadə***

# Əli Kərimli qrant layihələrinin bir hissəsidir?

## Yaxud mitinq düşkünlüyü, yoxsa intiqam hissi



Özünü "müxalifət" adlandıran, cəmiyyətdə dayağı olmayan, hələ də mitinq və küçə təfəkkürü ilə yaşayan, qrantlara görə hər şeylərini satan erməni xislətli xarici qüvvələrin nökərləri olanlar 30 il əvvəlki ağıl və düşüncə, vərdişlərini unuda bilmirlər. Dünya inkişaf edir, demokratik seçki, siyasi mübarizə metodoligiyası təkmilləşir. Demokratik cəmiyyətin əsas atributuna çevrilən xalqın seçimi hakimiyyətin əsas təməli kimi daha da möhkəmlənir. Ancaq "müxalifət" pərdəsi altında olan satqınlar hələ də anlamırlar ki, indiki hakimiyyət milli hakimiyyətdir və mitinq və küçə yürüşləri demokratik mübarizənin, xalqın iradəsinin və sosial sifarişin ifadəsi deyil.

Mitinq sifarişini verən xarici qüvvələr və bu sifarişin köləsinə çevrilən antimilli ünsürlər anlamırlar ki, Azərbaycan dövləti ilə xalqının monolitliyi, iqtidar və xalq birliyi bütün bu təxribatları iflasa uğradır. Azərbaycan cəmiyyəti radikal müxalifətin bu cür antimilli mövqeyini ikrah hissi ilə qarşılayır. Bütövlükdə isə, xalqın radikal müxalifətə etimad göstərməməsinin səbəbi bəllidir: ölkənin milli mənafeyini özlərinin və xidmət etdikləri qüvvələrin korporativ maraqlarına qurban verməyə hazır olan, ictimai şüuru manipulyasiyaya məruz qoymağa çalışan, dağıdıcı çağırışlar edən, radikal-ekstremist qüvvələri dəstəkləyən, həmçinin bu kimi bir çox antimilli hərəkətləri fəaliyyətlərində əsas istiqamət kimi götürən dağıdıcı qüvvələrə etimad göstərmir!

### Əli Kərimli: "Biz xaricdə internet TV və sosial şəbəkədə çıxış edənlərlə birgə hərəkət edirik"

Göründüyü kimi, AXCP sədri satqın Əli Kərimli bünövrədən çirkabla həyata göz açıb. Mitinq xəstəsi Əli Kərimli bu günlərdə katibəsi, ata qatillərinin müdafiəçisi Sevinc Osmanqızının kanalında verdiyi müsahibəsində bildirir ki, guya "sosial sifariş olduğu üçün mitinqlərə başlamaq qərarına gəliblər". Ancaq unudur ki, sosial sifariş çoxmilyonlu cəmiyyətin hər bir üzvünün tələbidir. Məsələ ondadır ki, cəmiyyətin kiçik bir qisminin arzu və istəkləri ümumilikdə sifariş deyil, müəyyən qüvvələrin maddi-siyasi maraqlarının ifadəsidir. Gülünc və absurd düşüncə. 150-200 insanın mintinq ehtirası hansı sosial sifariş ola bilər? Ancaq mitinqin həqiqətən sifariş olduğunu da gizlətmək olmaz, bu sifarişin mənbəyi isə Azərbaycan deyil, Qərbdəki anti-Azərbaycan qüvvələridir. Bunu Kərimlinin fikirləri də çılpaqlığı ilə ortaya qoyur. Onun "biz xaricdə internet TV və sosial şəbəkədə çıxış edənlərlə birgə hərəkət edirik" fikri də xaricdən idarə olunduqlarını, sifarişin də, məhz xarici ağaların verdiyini təsdiqləyir.

Göründüyü kimi, mitinq və digər aksiyalar "Milli Şura"nın və Əli Kərimlinin qrant layihəsinin bir hissəsidir. Bu layihələrin məqsəd və məramı gizli deyil, Azərbaycan dövlətini, Azərbaycan hakimiyyətini hədəf seçmək. Həm ölkə daxilindəki "beşinci kolon" nümayəndələri, həm də "mühacir" adı ilə xaricə sığınan antimilli ünsürlər ermənipərəst mərkəzlərdən aldıqları qrantların "haqq"ını vermək üçün istənilən hadisədən, mövzudan istifadə etməklə ölkədə qarışıqlıq yaratmaqdır.

Və "Beşinci kalon"un satqın "süláləsi" - Əli Kərimlini, Sevinc Osmanqızını, Cəmil Həsənlini, Qənimət Zahidi, Xədicə İsmayılı, Vidadi İskəndərlini, Arif Məmmədovu və bu kimi erməniyə satılanları nə maraqlandırır? Əli Kərimli deyir ki, "əgər ölkənin daxilində ciddi dirəniş olmasaydı, bu gün baş verənlər olmayacaqdı. Bunu bilin, biz meydanda olanda dünya bizi eşidəcək!". Nə qədər rəzil düşüncə! Başqa cür də düşünə bilməzlər. Çünki xarici qüvvələrin təsiri altında, onlardan maliyyə asılılığında olan bu satqın, antimilli ünsürlər və onların təlimatçıları hər cür dövlət mənafeyini satmağa, Vətəninə xəyanət etməyə hazırdır. Çünki "Beşinci kalon"un satqınları xarici antiAzərbaycan dairələrdən aldığı pullarla ölkəmizə, müstəqilliyimizə qarşı mübarizə aparan erməni lobbisi və terrorçularla həmişə bir səngərdə yer alan antimilli ünsürlərdir. Azərbacan dövləti və dövlət başçısı hər addımında milli maraq və mənafeləri uca tutur. Azərbaycanda hakimiyyət tərəfindən aparılan siyasətin ən başlıca vəzifəsi azərbaycan vətəndaşın daha da firavan yaşamasıdır.

### "Vətən daşı olmayandan, olmaz ölkə vətəndaşı!"

Böyük şairimiz Məmməd Arazın dediyi kimi: "Vətən daşı olmayandan, olmaz ölkə vətəndaşı!". Bəli, bu gün "ermənidən betər" olan, niyyət və əməli daha çox Azərbaycanda daxili sabitliyi pozmağa yönələn, fəaliyyəti ilə hər zaman ölkəmizin nüfuzunu zədələməyə çalışan ifrat dağıdıcı müxalifət əslində, antiazərbaycançı şəbəkənin bir təmsilçisi kimi çıxış etdiyini istər-istəməz faş etməkdədir. Bu aksiomadır ki, erməni xüsusi xidmət orqanlarına xidmət edən hər kəs, şübhəsiz ki, Azərbaycanın düşmənidir. Bu yerdə ermənilərin dostları ilə dostluq edən "Milli Şura"çılar kimdir? Nə araşdırmaq lazımdır, nə də fikirləşmək. Cavab bəllidir. Çünki Vətən daşına dönük çıxanlar bu ölü qurumda toplaşıb. Ancaq bu gün istər Əlisi, Cəmili, İsası, Arifi, Gültəkini... və bu kimi satqın və əxlaqsızlar Azərbaycanda xaotik bir durumun formalaşmasını arzulasalar da, arzuları elə bir daşa dəyir ki... sonda xalqın nifrətinə düçar olurlar.

Bu gün özünü "qazi" adlandıran Tofiq Yaqublu kimilərin ortaya düşərək, Azərbaycan xalqının Vətən Müharibəsindəki qələbəsi ilə bağlı böhtanlı sözlər deməsi, doğrudan da böyük şairimizin dediyi kimi, belələri Vətən qədrini bilməzlər. Bu, artıq sağalmayan siyasi xəstəlikdir. Bu siyasi xəstəlik illərdir ki, vətən satqınlığı ilə müşaiyət olunur.

### "Bu oyun Əli Kərimlinin əl işidir"

"Hətta Paşinyan belə tarixi Azərbaycan adlarını azərbaycanca deyirsə, bu, artıq kapitulyasiyanın təhtəlşüura, dilaltına, dilarxasına işləməsidir. Və bütün bunlardan sonra da ermənidən artıq erməni olmaq meyilləri qaragüruhda qalırsa, bu, gen məsələsidir. Dost dosta tən gərəyi bilirdik, düşmənə isə gen gərək. Genetik kodla bağlı olmaq gərək". Bunu Mirşahin Ağayev Real TV-nin "Mirşahinin vaxtı" proqramında deyib. O, bildirib ki, Şuşa, Laçın Kəlbəcər məğlubiyyətinin təkcə Müsavat-AXC cütlüyünün fəaliyyətinin nəticəsi deyil, həm də bu cütlüyün Koçaryanla, Sarqsyanla rəmzi şəriklik, müştərəkliyinin yekunu olduğunu unutmamalıyıq: "Ona görə də qələbəmiz həm Koçaryanda, həm Sarqsyanda, həm də 1992-ci ildə bir il hakimiyyətdə olmuş səriştəsiz, fərsiz, məsuliyyətsiz həvəskarlar korpusunda qıcıq yaradır. Və elə burdaca beşinci kalon məsələsi ortaya çıxır. Bu ifadənin tarixinə ekskurs etməyəcəm. Fərqli situasiyalarda paralellər bəzən heç yerinə düşmür. Amma bir yanlışa mütləq düzəliş verməliyik. "Beşinci kalon" qaragüruh başçıların iddia etdiyi və bizim bəzi qara media tribunlarının yönləndirdiyi yerdə deyil. "5-ci kolonun" bugünkü əsas fəaliyyət istiqamətlərindən biri də təxribat xarakterli informasiyaların və dezinformasiyaların yayılmasıdır".

Bəli, "5-ci kalon"a xas təxribat xarakterli informasiyalar və dezinformasiyalar, 44-günlük müharibənin guya Rusiya ilə razılaşdırılması barədə şaiyələr və ya bu gün Azərbaycanla Rusiya arasında yaşanan gərginliyin "razılaşdırılmış oyun" olması barədə iddialar məhz qaragüruhun, onu yönəldən Kərimlinin əl işidir. Və Əli Kərimli və onun qoltuğuna sığınan virus müavini Seymur Həzi də təxribat xarakterli informasiyalar və dezinformasiyalar yayaraq sosial şəbəkələdən mitinq çağrışı edənlərin başını "dəmir yumruq"la birdəfəlik əzmək, siyasi etikaya, insanlığa uyğun gəlməyən formada istifadə edən bu cür virusların çağırışına meydan verməməlidir. Çünki xalq "müxalifət" pərdəsi altında iyrənc hərəkət edənləri çoxdan tarixin zibilliyinə atıb.

Bir sözlə, Vətənindən, dövlətindən üz çevirən şəxsin hərəkətlərinin bir adı var - mənəviyyatsız! Bu satqın və mənəviyyatsızlar bilməlidirlər gec-tez xalqın qarşısında ən ağır cəzalarını alacaqlar, özü də bağışlanılmayan cəzalarını!

***Rəfiqə HÜSEYNOVA***

## "Azərbaycan geriyə addım atmadı və öz haqqını müdafiə etdi"



"Son dövrlərdə Azərbaycan-İran münasibətləri soyumuşdur. Azərbaycan cəmiyyətinin də təpkiləri başa düşülən idi". Bu sözləri SİA-ya açıqlamasında deputat Tahir Kərimli deyib. Onun sözlərinə görə, İran tərəfi öz mövqelərindən geri çəkildi və qərar verdi ki, Xankəndi Azərbaycanın ərazisidir: "Azərbaycanın suveren ərazisinə icazəsiz girmək olmaz. Bu Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bir daha təsdiqi idi. Azərbaycan bütün dövlətlərlə qonşuluq münasibəti qurmaq niyyətindədir. Azərbaycanın dövlət siyasəti bu xətt üzrə inkişaf edir. Hətta Ermənistanla sülh müqaviləsi bağlanandan sonra da Azərbaycan bu dövlətlə sülh şəraitində yaşamaq istəyir.

Hazırda Azərbaycan ilə İran arasında, hətta digər dövlətlərin iştirakı ilə məsləhətləşmələr gedir. Artıq İran rəhbərlərinin bəyanatında gördük ki, onlar Azərbaycan ilə normal münasibətlərin inkişafını arzulayırlar. Hesab edirəm ki, Azərbaycan tərəfi bu məsələdə çox doğru və təmkinli mövqe nümayiş etdirdi. Geriyə addım atmadı və öz haqqını müdafiə etdi. Bütün dünya da gördü ki, Azərbaycan nə qədər haqlıdır və doğru yoldadır. Bunu da İran qəbul etmək məcburiyyətində qaldı. Belə bir vəziyyətdə əlbəttə ki, Azərbaycan dövləti İranla xoş münasibətlərin inkişafı üçün çalışacaq".

***Arzu Qurbanzadə***

AÇIQLAMA:

## "Əli və Cəmil kimilərini düşünəndə yolunu azmış qız yadıma düşür"



"Gənclik vaxtlarımız idi. Evimizə qonaq gələn bir qadın anamla söhbət edirdi. Qulaq oğrusu oldum. Yolunu azıb, yüngül həyat tərzi keçirən bir gənc xanımdan danışırdı qonaq qadın. Bir cümləsini unuda bilmirəm. Dedi ki, həmin qızı şəhərdə görüb, ona ağıl vermək istəyib. Qız da cavab verib ki, mən onsuz da bu yolun yolçusu kimi tanınmışam, bundan belə yoluma necə qayıdım? Bilirəm ki, səhv yoldayam, amma bu da mənim həyatımdı, artıq gecdir, qayıdıb normal həyat qurmağım mümkün deyil". Bunu "Azadlıq Hərəkatçıları" Birliyinin sədri Təhmasib Novruzov "Səs" qəzetinə açıqlamasında bildirib.

Onun sözlərinə görə, Əli kimi, Cəmil kimi, onlara bənzəyən, özünü müxalifət adlandıran bəzi siyasilərin indiki fəaliyyəti haqqında düşünəndə həmin yolunu azmış qız yadıma düşür: "Başa düşmək olmur, bunlar kimə, hara, hansı əqidəyə qulluq edirlər. Azərbaycan son 274 illik tarixinin ən möhtəşəm qaliblik dövrünü, bütün sahələrdə fenomenal inkişaf dövrünü yaşayır. Siyasət hoqqabazları nə istəyirlər? Bunun əksini? Belədirsə, deməli, onların damarlarında azərbaycanlı, türk qanı axmır. Hətta düşmən ermənin etiraf etdiyi Azərbaycanın inkişafını, qüdrətini görməyən və ya görmək istəməyən bu adamların bizdən olduğuna şübhə edirəm. Yetər artıq düşmən dəyirmanına su tökdükləri".

T.Novruzov onu da bildirdi ki, Azərbaycan dünyanın hansı güc mərkəzləri ilə qarşı-qarşıya gəlib, milli və dövlətçilik maraqlarını müdafiə etdiyini bilərək, bu iqtidara qarayaxma kompaniyası aparmaq, hesab edirəm ki, şərəfini, ləyaqətini pula satmaqdır: "Məsləhətdir ki, bu adamlar siyasi fəaliyyətdən əl çəkib, özlərinə başqa çörək yeri tapsınlar. Çünki belə çörək qazanmaqla, yuxarıda haqqında danışdığım yolunu azmış gənc qızın çörək qazanma yolunun fərqi yoxdur. Yox əgər onlar da, adları belə çıxıb deyə bu yoldan qayıtmayacaqlarsa, aqibətləri də həmin qızın və onun kimilərin aqibətindən fərqli olmayacaq. Qazancları da, təbii ki, nifrət, rəzalət, öləndə də rəhmət oxunmamaq olacaq! Çünki xalq hamının, hər bir fəaliyyətin kimə və nəyə xidmət etdiyini müəyyən edən ən ədalətli tərəzidir. Tərəzinin iqtidar tərəfi o qədər ağırdır ki, öz tərəflərini çamırla doldurmaq onların çəkisini artırmaz. Məncə bunlar ordan-burdan borc papaq tapıb, qabaqlarına qoyub fikirləşsələr, görərlər ki, özlərini günbəgün necə rəzil edirlər. O da borc papaq verən tapılsa!"

***Gülyana***

# Vətən, uğrunda ölən varsa VƏTƏNDIR!

## YAP Biləsuvar rayon təşkilatının əməkdaşları şəhid ailələrini ziyarət edib

Yeni Azərbaycan Partiyası Biləsuvar rayon təşkilatının sədr əvəzi Aqşin Bağırov, təşkilatın əməkdaşları və fəalları 28 oktyabr 2021- ci il tarixdə 44 günlük Vətən müharibəsində vətənimizin müdafiəsi uğrunda öz canından keçən Biləsuvar şəhərindən olan şəhid Qədirli İsmayıl Elçin oğlunun və Nəsimi kəndindən olan şəhid Yoldaşov Alim Mirzə oğlunun il-






dönümləri ilə əlaqədar olaraq ailələrini ziyarət ediblər.

Daha sonra şəhidlərimizin məzarları ziyarət olunub, məzarları üzərinə tər gül dəstələri düzülərək əziz xatirələri böyük ehtiramla yad edilib və ruhlarına dualar oxunub. Allah rəhmət eləsin!

***Rəfiqə***

## Şəhid Məhəmməd Osmanovun doğum günü Ağdaş rayonunun Ərəbocağı kəndində qeyd olunub

Ağdaş rayonunun Ərəbocağı kəndində Vətən müharibəsi şəhidi Osmanov Məhəmməd Seymur oğlunun doğum günü münasibətilə "Cənnətdəki doğum günün - 27 yaşın mübarək" adlı tədbir keçrilib. Ərəbocağı şəhidlərinin xatirə lövhəsinin önündə keçirilən tədbirdə YAP Ağdaş rayon təşkilatının fəalları, rayon icra hakimiyyətinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rayon şöbəsinin əməkdaşları, məktəblilər, şəhid ailələrinin üzvləri, qazilər, müharibə iştirakçıları iştirak ediblər. Tədbir Dövlət Himninin səsləndirilməsi ilə açılıb, şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Tədbirdə








şəhidin döyüş yolundan söhbət açılmış, keçirdiyi qısa və şərəfli ömür yolundan danışılıb. Ərəbocağı kənd tam orta məktəbinin şagirdlərinin ifasında ədəbi-bədii kompozisiya səsləndirilib. Tədbirdə çıxış edənlər şəhid ailələrinə göstərilən diqqət və qayğıdan razılıqlarını ifadə edərək, buna görə Prezident, Ali Baş Komandan Cənab İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını ifadə ediblər. Tədbirdə iştirak edən bir qrup şəhid ailəsinə onların övladlarının ölkə Prezidenti Cənab İlham Əliyevin müvafiq sərəncamları ilə təltif olunduqları medallar təqdim olunub.

Tədbir iştirakçıları şəhidin Ərəbocağı kənd qəbiristanlığındakı məzarını ziyarət etmiş, üzərinə gül-çiçək dəstələri düzmüş, şəhidin doğulub-böyüdüyü və ailəsinin yaşadığı evdə olmuş, valideynlərinə başsağlığı veriblər. Şəhidlərin ruhlarına dualar oxunub.

Osmanov Məhəmməd Seymur oğlu 27 oktyabr 1994-cü ildə Ağdaş rayonunun Ərəbocağı kəndində anadan olmuşdur. Məhəmməd Osmanov Azərbaycan Ordusunun əsgəri kimi Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda başlayan Vətən müharibəsində iştirak etmiş, oktyabrın 4-də Suqovuşan istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur. Ölkə Prezidenti, Ali Baş Komandan Cənab İlham Əliyevin müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

***ZÜMRÜD BAYRAMOVA***

## Samuxda şəhid Bayram Məmmədovun ildönümü qeyd olunub

Samux rayonu Qarayeri qəsəbəsində 44 günlük Vətən müharibəsində qəhrəmanlıq göstərərək şəhidlik mərtəbəsinə yüksəlmiş Məmmədov Bayram Elnur oğlunun ildönümü



qeyd olunub.

İldönümü mərasimində Samux Rayon İcra Hakimiyyətinin başçısı Alı Qocayev, Yeni Azərbaycan Partiyası Samux rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən Gündüz Bayramov, hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhidin ailə üzvləri və kənd ictimaiyyətinin nümayəndələri iştirak ediblər. Şəhidimizin məzarı ziyarət olunub, məzarı üstünə gül-çiçək dəstələri düzülərək ruhuna dualar oxunub.

Mərasimdə şəhidimizin keçdiyi şərəfli döyüş yolundan danışılıb. Qeyd olunub ki, Füzuli-Xocavənd istiqamətində gedən ağır döyüşlərdə şəhid olub.

Qeyd edək ki, ölümündən sonra Bayram Məmmədov Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.

## "Dəmir yumruq yerindədir"

28 oktyabr 2021-ci il tarixdə Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatı aparatında Zəfər gününün birinci ildönümünə həsr olunmuş "Dəmir yumruq yerindədir" mövzusunda Vətən müharibəsi iştirakçıları eləcə də bu döyüşlərdə iştirak etmiş





Masallı Dövlət Regional Kollecinin tələbələri ilə görüş keçirilmişdir. Görüşü giriş sözü ilə Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən Seyfəddin Əliyev açmış, ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz və unudulmaz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Seyfəddin Əliyev Möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin 44 günlük Vətən müharibəsində əldə etdiyi tarixi Zəfərdən bəhs edib. Seyfəddin Əliyev şanlı tarix yazan vətən oğullarının qəhrəmanlığından, Silahlı Qüvvələrimizin misilsiz rəşadətindən, hərbçilərimizin əzmkarlığından, xalqımızın mübarizliyindən, danışaraq əldə olunan uğurları Prezident-Xalq birliyinin şərtləndirdiyini xüsusi vurğulayıb.O, ölkəmizin ərazi bütövlüyünün təmin olunması uğrunda hərbi əməliyyatlarda əsgər və zabitlərimizin göstərdikləri şücaətlərin hər birimizdə sonsuz iftixar hissi doğurduğunu qeyd edib.Seyfəddin Əliyev qeyd etdi ki, artıq Qarabağ xalqımız üçün arzu deyil, reallıqdır. Bu reallığı yaradan və qələbəmizi təmin edən Ali Baş Komandanımız Cənab İlham Əliyev başda olmaqla, fədakar əsgər və zabitlərimizə bir daha sonsuz minnətdarlığımızı bildirik.

Görüşdə Masallı rayon İcra hakimiyyətinin Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Qeşəm Hadıyev, Qarabağ Müharibəsi əlilləri, veteranları və şəhid ailələri ictimai birliyinin sədri Nahid Rəhimov, Vətən müharibəsi iştirakçılarından Cəmaləddin Məmmədov, Təbriz Səfərov, Cavid Nuri və başqaları çıxış edərək Vətən müharibəsinin unudulmaz təəssüratları xatırlanıb. Sonra bir qrup Vətən müharibəsi iştirakçılarına Yeni Azərbaycan Partiyasının üzvlük vəsiqələri təqdim olunub.

***Rəfiqə***

## YAP Şəmkir rayon təşkilatı şəhid ailələri ilə görüşlərini davam etdirir

YAP Şəmkir rayon təşkilatının rəhbərliyi və partiya fəalları rayonun Sabirkənd kənd sakinləri, Vətən müharibəsi şəhidləri kapitan Hafiz Xalid oğlu Abdurrahmanov, baş leytenant Habil Qabil oğlu Əbdürrəhimli və





Məhəmməd Yaqub oğlu Əliyevin məzarlarına gül-çiçək dəstələri düzüb və ailə üzvlərini ziyarət ediblər. YAP Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyev çıxış edərək Vətən müharibəsində Azərbaycan oğullarının göstərdiyi şücaət və qəhrəmanlıqlardan, yetişən gənc nəslin üzərinə düşən vəzifələrdən danışdı və bildirdi ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətimiz tərəfindən şəhidlərimizin xatirəsinə, Milli qəhrəmanlarımıza, qazi və şəhid ailələrinə sonsuz ehtiram göstərilir. Digər çıxış edənlər Hafizin, Habilin və Məhəmmədin qısa və şərəfli ömür yollarıdan, onlarla bağlı xatirələrindən danışıblar. Qeyd edilib ki, Hafizin, Habilin və Məhəmmədlə bərabər Vətənimizin ərazi bütövlüyü uğrunda şəhid olmuş qəhrəmanlarımızın hər biri gənc nəslə örnəkdir. Torpaqlarımızın azadlığı və bütövlüyü uğrunda canından keçən Hafizin, Habilin, Məhəmmədin və bütün Vətən şəhidlərinin xatirəsi heç vaxt unudulmayacaq, daim qürur hissi ilə anılacaq.

Təşkilat nümayəndələri ailələrin qayğı və problemləri ilə maraqlanıb, onları narahat edən məsələlərin tezliklə həllini tapacağını bildiriblər. Şəhidlərin ailə üzvləri göstərilən diqqət və qayğıya görə Ali Baş Komandan, Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını ifadə ediblər.

***Rəfiqə***

# "Möhkəm dayanın", İran köməyə gələcək...

## Yeyib böyüdüyü türk çörəyinə naxələf çıxan Semyon Baqdasarovun ermənilərə tövsiyələri

**Təbii ki, harada doğulmasından asılı olmayaraq erməni elə ermənidir. Öz xəbisliyi və xainliyi ilə. Qeyd edim ki, Özbəkistanda doğulub, türk çörəyi yeyib sonrada ona naxələf çıxan Semyon Baqdasarov da belə ermənilərdəndir. Əslində, onun türkdilli (təkcə türkdillimi?) xalqlara qarşı hansı xislət nümayiş etdirdiyini sadalamağa elə də ehtiyac yoxdur. Təkcə bir faktı xatırladım ki, o vaxt, yəni 2010-cu ilin mayında Türkiyə "Akkuyu" atom elektrik stansiyanın tikintisi ilə bağlı Rusiya ilə müqavilə imzalayanda erməni Baqdasarov erməni xislətini ortaya qoyub "yaxasını cırırdı".**









Həmən vaxt beşinci çağırış Dövlət Dumasının deputatı olan Baqdasarov Dumada keçirilən plenar iclasların birində "Türkiyədə atom elektrik stansiyasının tikintisi" məsələsi ilə bağlı çıxış edərək Ankaranın Moskva ilə etibarlı tərəfdaş ola bilməyəcəyini iddia edirdi.

Niyə uzağa gedək, elə ötən günlərin birində, Solovyovun verlişinə çıxan Baqdasarov bu dəfə Rusiyanın Türkiyəyə qarşı Kürdüstan Fəhlə Partiyasının (PKK) xidmətindən yararlanmağı məsləhət görürdü. Doğrudur, həmən verilişdə onun bu "uzaqgörğnliyi" verlişin digər iştirakçıları tərəfindən nəinki təqdir edilmədi, əksinə onun "bu təklifi"ni bəziləri Baqdasarovun siyası savadsızlığının "ayağına yazdılar". Amma deyim ki, Baqdasarovun bu "çağırışı" onun siyası savadsızlığı kimi yox, erməni xislətliliyi ilə əlaqələndirilməlidir.

Qeyd edək ki, 44 günlük müharibə dövründə də Semyon Baqdasarov digər həmkarı, teatrşünas Sergey Kurqinyanı da yanına qataraq Azərbaycana, onun erməniləri qabağına qatıb qovduğu Ordusuna qarşı hansı hədyanlar söylədiklərini yəqin unutmamısınız.

...Bu arada, yadımdaykən, qeyd edim ki, Baqdasarovun Mixail Saakaşvili Gürcüstanın prezidenti olarkən ona (...yenə də təkcə onamı) hansı münasibət sərgilədiyini xatırlamış olarsınız. Əslində bu onun gürcü prezidentinə olan nifrətindən irəli gəlirdi. Çünki Saakaşvili Gürcüstanda prezident olarkən ermənilərin kompakt yaşadıqları Samtsxe-Cavaxetidəki özbaşnalıqlarına qarşı ölkə rəhbərinin gördüyü tədbirlər digər ermənilər kimi, Baqdasarovu da qane etməmişdi. Bildirək ki, sonradan Gürcüstanın keçmiş xarici işlər naziri işləmiş Qriqol Vaşadzenin Rusiya vətəndaşlığından məhrum edilməsinin əsas səbəbkar kimi Semyon Baqdasarov görülürdü. Əslində isə, bu belə idi...keçmişlərdə olmuşlara cavab kimi...

Təbii ki, bütün bunlar artıq arxada qalıb. Bu gün Baqdasarov və onu Rusiyadakı həmkarlarının Ermənistanın "yenilməzliyi" ilə bağlı rus telekanallarından səsləndirdikləri sərsəmləmələri artıq ayaqlar altında çoxdan bəri tapdanıb. Əslində, bunu dediyimiz kimi, Baqdasarov da yaxşı anlayır. Amma neyləsin ki, dediyimiz kimi, türk çörəyi ilə böyüsə də, bir erməni kimi, ermənilərə öz məsləhətlərini verməyi öznə borc bilir.

Belə ki, o ilk olaraq, Ermənistandakı ermənilərə sərhədlərin demarkasiya və delimitasiyasında tələsməməyi məsləhət görür(?). Onları hər vəhclə "Zəngəzur dəhlizi"nin reallaşması ilə razılaşmamağa çağırır. Və hətta onları inandırmağa çalışır ki, bu dəhlizin reallaşması, artıq Ermənistanın ölümü demək olacaq. Ona görə də o Ermənistanda hər kəsi buna qarşı çıxmağa çağırır. Maraqlıdır ki, Baqdasarov ermənilərə uydurduğu başqa bir yalana da inandırmağa çalışır ki, əgər onlar dəhlizin tikintisi əleyhinə qalxsalar, bu halda İran onlara köməyə "tələsəcək"(?).

Əslində, qeyd edilməlidir ki, burada Baqdasarova rahatlıq verməyən başqa nüanslardır. Məsələn, o Ermənistan ərazisindən keçəcək dəhlizin türklərin əsas strateji arzusu olduğunu iddia edir. O deyir ki, əgər dəhliz çəkilişi reallaşsa bu zaman Mərkəzi Asiyadan və onun hüdudlarından kənarda karbohidrogenlərin əsas qovşağına çevrilən Türkiyə üçün bir çox məsələlər həllini tapacaq. Baqdasarova görə, guya bütün bunlar Rusiyanın maraqlarına cavab vermir. Yəni Azərbaycan-Türkiyə tandeminin "Zəngəzur dəhlizi"nin yaradılmasına yönəlmiş hərəkətləri anti-Rusiya xarakteri daşıyır. Çünki Türkiyə NATO üzvüdür. Ukraynaya rusları öldürmək üçün "bayraktarlar" satır. Ona görə də, Türkiyənin "oyunları" Rusiyanın maraqlarına uyğun deyil, deyə dayandırılmalıdır.

Maraqlıdır ki, burada Baqdasarovun ermənilərə iradlarından biri də Paşinyanın erməni maraqlarını təslim etmək siyasəti yürütməsi ilə bağlıdır. O. burada da "erməni uzaqgörənliyi" ilə belə davam edəcəyi təqdirdə Ermənistanın suveren dövlət kimi öz mövcudluğunu itirəcəyini deyir. (...görən itirilmişin daha nəyi itirilməlidir?) Burada erməni Baqdasarov üçün "ən dəhşətlisi" bilirsiniz nədir: Ermənistanın Türkiyə tərəfindən mənimsənilib türk vilayətinə çevrilməsi...bu isə erməni xalqının ölümü deməkdir. Baqdasarov ermənilərə illüziyalara qapılıb Qərbdən və ya Amerikadan kömək gözləməməyi məsləhət görür.

Əslində belə görünür ki, Baqdasarov da özü və Rusiyaya səpilmiş başqa ermənilər kimi Ermənistan ermənilərini rusların balağından möhkəm yapışmağa çağırır.

***Ağasəf Babayev***

SİYASİ RAKURS

# Əli İnsanovun HƏP-i qeydiyyatdan keçsə də...

*Şəxsi maraqlarını dövlət maraqlarından üstün tunalar isə nağıllar danışdılar*



Hakimiyyətin çoxpartiyalı sistem yolunda son iki ildə başlatdığı prosesi daha da genişləndirmək məqsədi fakt olaraq göz qabağındadır. Biz bu məsələdə bir neçə gün əvvəl sabiq səhiyyə naziri Əli İnsanovun Haqq və Ədalət Partiyasının (HƏP) eləcə də Anar Əsədlinin Yüksəliş Partiyasının qeydiyyatdan keçməsini göstərə bilərik. Yəni bu amilin özü də sübut edir ki, artıq Azərbaycanda aparılan daxili siyasi islahatlar da öz bəhrəsini verməkdədir. Daha dəqiq desək, ölkəmizdə mövcud olan demokratik idarəçilik reallığı bütün istiqamətlərdə olduğu kimi, siyasi partiyalara da öz aidiyyatını göstərməkdədir. Yəni hansı partiyanın radikal, yaxud hansı partiyanın konstruktiv müxalifət olmalarına fərq qoyulmayaraq təşkilatlara eyni müstəvidən baxılır. Təbii ki, həmin partiyalar da gələcək fəaliyyətlərində bu kimi önəmli addımlardan nəticə hasil etmələri ilə dövlətçilik maraqlarını digər qəbulolunmaz maraqlara qurban verməməlidirlər.

### İqtidarın istənilən uğurlu, demokratik siyasi uğurlarına kölgə salmaq istəyənlər hələ də siyasi arenada var-gəl etməkdədirlər

Lakin HƏP-in sədrinin və təsisçisinin Əli İnsanov olduğunu da nəzərə alsaq və bu gün onun partiyasının qeydiyyata alınması ətrafında digər qeyri-ciddi müxalifət partiya rəhbərlərinin iddialarını araşdırsaq, bir daha görərik ki, əslində, Azərbaycan iqtidarının istənilən uğurlu, demokratik siyasi uğurlarına kölgə salmaq istəyənlər hələ də siyasi arenada var-gəllər etməkdədirlər, halbuki, belə siyasi partiyaların nə cəmiyyətə, nə ölkəyə heç bir səmərələri yoxur, onlar bu təşkilatlarını sanki şəxsi siyasi biznes ofislərinə çeviriblər, dövlətçilik üçün fəaliyyət göstərmək amilinin isə onlara heç bir aidiyyatları yoxdur. Halbuki bu gün hakimiyyətin aparıcı qollarından biri də Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsidir. Bu şöbə məhz müxalifətdə olan partiyaları zaman-zaman dialoqa dəvət edir, dövlətçilik maraqlarının təmin olunması yönündə müxtəlif təşəbbüslər irəli sürülür, təkliflər dinlənilir.Yəni adıçəkilən şöbə partiyalarla fəal iş aparır. Eyni zamanda, partiyaların qeydiyyata alınmasına istiqamətində daha əvvəllər yaradılan müxtəlif əngəlləri aradan qaldırılması yönündə ciddi səylər göstərilir. Bütün bunlarla yanaşı, həmin partiyalara simvolik qiymətə mənzil qərargahların ayrılması faktı da belə deməyə zəmin yaradır ki, Azərbaycanın demokratik iqtidarı çoxpartiyalı siyasi sistemin möhkəmləndirilməsində bundan sonra da öz ciddi töhfələrini verməyə davam edəcək. Bu, eyni zamanda müasir siyasi sistemlər quruluşu baxımından həm də siyasi plüralizmin vacib məqamlarından biri kimi ehtiva olunmaqdadır.

Əgər bu gün HƏP və Yüksəlik partiyaları qeydiyyata alınırsa, növbəti vaxtlarda digər siyasi partiyalar da dövlət qeydiyyatından keçəcəklərsə, burada siyasi rəqabət mühitinin də yaradılmasından bəhs etmək mümkündür. Çünki beynəlxalq aləmdə rəqabət mühiti mövcuddur və həmin mövcudluğun siyasi partiyalara da aid edilməsi zamanın tələbidir.

### HƏP-in qeydiyyata alınmasında gülünc iddialar səsləndirən AXCP, Müsavat kimi partiyalar "uşaq bağçası" səviyyəsində olduqlarını sübuta yetirmiş oldular

44 günlük Vətən müharibəsi və ondan sonrakı dövr də göstərdi ki, siyasi partiyalar ümummilli məsələlərdə kifayət qədər ortaya prinsipal mövqe qoyurlar. Misal üçün, həmin ərəfədə bir neçə sözdə radikal müxalifət partiyası kimi adlandırılan siyasi təşkilatları çıxmaq şərti ilə bütün müxalifət partiyaları bilavasitə Prezident və Ali Baş Komandanın siyasətini müdafiə etdilər, səslərini beynəlxalq aləmə çatdırdılar. Bu gerçəklik həm də sübut etdi ki, Vətən müharibəsi milli həmrəyliyin, gücün təcəssüm etməsində böyük rol oynadı.

Bu gün Əli İnsanovun partiyasının qeydiyyata alınmasında müxtəlif gülünc iddialar səsləndirən AXCP, Müsavat kimi partiyalar və onların rəhbərlikləri isə sözün əsı mənasında "uşaq bağçası" səviyyəsində olduqlarını sübuta yetirmiş oldular. Guya hakimiyyətlə sövdələşməyə getdiyi bildirilən HƏP sədrinin guya iqtidar qarşılığında öhdəliklər götürməsi barədə danışılanlar isə sözün əsl mənasında "bişmiş toyuğu güldürən" iddialardır.

### Sonradan şəxsi maraqlarını hər şeydən üstün tutmasalar...

Yaxşı olardı ki, qeyri-sağlam düşüncələri ilə mümkün olmayan məsələləri öz maraqları çərçivəsində xalqa sırımağa çalışan cinahlar bir dəfə də xalq qarşısına çıxaraq özlərinin hansı qüvvələrlə işbirliyi göstərmələri barədə, haralardan sifarişlər almaları haqqında cürət edib hesabat verərdilər. Amma göründüyü kimi, bunu etmirlər, çünki yaxşı bilirlər ki, ifşa olunacaqlar. Hansı ki, çoxdan ifşa olunublar.

Nəticə etibarı ilə faktlar göz önündədir və Azərbaycanda demokratik cəhətdən atılan nümunəvi addımlar bundan sonra da davam etdiriləcək və bir çox məsələlərdə müxalifət zaman-zaman hakimiyyətlə eyni masa arxasında oturaraq müzakirələr aparacaq. Təbii ki, sonradan şəxsi maraqlarını hər şeydən üstün tutmasalar.

***Rövşən RƏSULOV***

# Yevgeni Mixaylov: Azərbaycan-Ermənistan arasında 2 yekun müqavilə imzalanacaq



Politoloq: "ABŞ və Fransa il boyu Qarabağın statusu məsələsini çox fəal şəkildə təbliğ edirlər. Amma bir daha məlum oldu ki, onların Azərbaycanla Ermənistan arasında vəziyyətə güclü təsir aləti yoxdur"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

**Azərbaycan və Ermənistan liderləri İlham Əliyev və Nikol Paşinyan noyabrın 9-da Rusiya prezidenti Vladimir Putinin vasitəçiliyi ilə Qarabağ nizamlanması üzrə tarixi üçtərəfli bəyanatın imzalanmasından 1 il sonra yeni sənədlər imzalayacaqlar. Bu barədə bu günlərdə Ermənistan mətbuatı ("Aliq Media") "etibarlı diplomatik mənbələrə" istinadən məlumat yayıb.**

"Son anda fors-major vəziyyət yaranmazsa, demək olar ki, yekun olan 2 sənəd Vladimir Putinin vasitəçiliyi və iştirakı ilə Nikol Paşinyan və İlham Əliyev tərəfindən imzalanacaq"- məlumatda deyilir.

Nəşrin yazdığına görə, 1-ci sənəd Ermənistanla Azərbaycan arasında dövlət sərhədinin delimitasiyası və demarkasiyasına aiddir, ona əsasən, İrəvan və Bakı SSRİ Müdafiə Nazirliyi Baş Qərargahının 1920-ci illərdəki xəritələri əsasında bir-birinin sərhədlərini və ərazi bütövlüyünü tanıyır. Vladimir Putinin bu xəritələri xatırlatması təsadüfi deyil.

Nəşr iddia edir ki, Rusiya, Azərbaycan və Ermənistan baş nazirlərinin müavinləri səviyyəsində bu yaxınlarda keçirilmiş görüş nəticəsində demək olar ki, yekun razılığın əldə olunduğu 2-ci sənəd regionda kommunikasiyaların, xüsusən də, dəhliz yollarının yaradılmasının təfərrüatları, o cümlədən Azərbaycan və onun bir hissəsi olan Naxçıvan Muxtar Respublikası arasında əlaqənin yaradılmasını nəzərdə tutur.

Oxşar məlumatı RİA Novosti də vəziyyətlə tanış olan mənbəyə istinadən yayıb. Tanınmış politoloq, millətlərarası münaqişələr üzrə ekspert Yevgeni Mixaylov "Moskva-Baku" platformasına bu məlumatları şərh edib. Ekspertin şərhini təqdim edirik:

- Mən əminəm ki, Moskva yaxın vaxtlarda yenidən Azərbaycan və Ermənistan arasında yeni sazişin imzalanmasının qarantı kimi çıxış edəcək. Bu, ilkin və ya yekun sülh müqaviləsi ola bilər. Bu yaxınlarda Rusiya, Azərbaycan və Ermənistan liderlərinin Qarabağ nizamlanması ilə bağlı üçtərəfli bəyanatının imzalanmasının ildönümü qeyd olunacaq. Düşünürəm ki, Moskva bütün maksimum addımları atır ki, indi, 1 ildən sonra yekun sülh sazişi imzalansın. Ermənistanda çoxları imzalanmanın baş tutacağını fakt kimi danışır.

Mənçə, Ermənistanın özündə insanlar gələcəklərinin yoxluğunu anlamaqdan yoruldular. Ermənistanın bütün cəhdləri- Fransanı, ABŞ-ı cəlb etmək, hansısa təxribatlar törətmək, KTMT-ni Azərbaycanla münaqişəyə cəlb etmək cəhdləri baş tutmadı.

Göründüyü kimi, Rusiya, Azərbaycan və Ermənistan liderləri tərəfindən imzalanandan sonrakı 1 il ərzində pərdəarxası danışıqlar 3 ölkə arasında ən yüksək və yüksək səviyyədə aparılıb. Və görünür, müvəffəqiyyətsiz deyil. Vladimir Putinin vasitəçiliyi ilə İlham Əliyevlə Nikol Paşinyan arasında mümkün görüş intensivləşmiş danışıqlar proseslərinin nəticəsidir. Ehtimal olunur ki, indi sənədlər imzalanacaq ki, bu da ilk növbədə Ermənistanın böhrandan çıxmasına, gələcəyə baxmağa imkan verəcək. Əgər Ermənistan sülh müqaviləsi imzalasa, o zaman onun qonşuları tərəfindən blokdan çıxmaq imkanı olacaq. Onun Azərbaycanla, Türkiyə ilə qarşılıqlı diplomatik və iqtisadi əlaqə imkanı yaranacaq.

Şübhəsiz ki, Vladimir Putin 10 dəfə belə görüşlər təşkil etməyəcək. Çünki bu qədər uzun müddət yalnız kiçik Ermənistan və onun problemləri ilə məşğul olmağın mənası yoxdur. Artıq Rusiya, Azərbaycan və Ermənistan arasında 2 saziş imzalanıb. Və əgər İrəvan onların icrasını gecikdirməsəydi, indi 3 ölkənin liderləri gəlib sülh müqaviləsini imzalayardılar. Və bölgə sülh və firavanlıq gözləyərdi. Amma Ermənistan bütün bu ili manevr etməyə çalışıb. Və ümid var ki, indi, noyabrda bütün məsələlər öz həllini tapacaq və Azərbaycan və Ermənistan münasibətlərində yeni səhifə açacaqlar.

Potensial yeni sazişin imzalanması birbaşa sübut olacaq ki, hər hansı intriqalara baxmayaraq, Qərbin Qarabağ nizamlanmasında Rusiyanın rolunu azaltmaq cəhdləri uğur qazana bilməyəcək. Moskva bir daha sübut edəcək ki, o, buna son qoyub, bütün prosesə rəhbərlik edib və onu uğurla sona çatdıra bilər. Bundan əlavə, üçtərəfli bəyanatın imzalanmasından keçən 1 il ərzində biz üçüncü ölkələrin heç birinin Əliyevlə Paşinyan arasında görüşlərin təşkilini öz üzərinə götürə bilməyəcəyini gördük. Rusiya həm bu münaqişənin həllini öz üzərinə götürüb, həm də bu məsələni öz nəzarəti altında sona çatdırır.



Müqayisə üçün qeyd edək ki, Azərbaycan üçtərəfli sazişin bütün şərtlərini yerinə yetirir və yeri gəlmişkən, Ermənistanı uzun müddətdir ki, yekun sülh sazişi imzalamağa çağırır. Qazanan Azərbaycandır, və o, prosesdə güclü tərəf kimi çıxış edir, daha zəif tərəfə əl uzadır.

İndi Rusiyanın əsas vəzifəsi Ermənistanı üçtərəfli sazişi həyata keçirməyə sövq etməkdir. Ermənistanın öz problemlərinin öhdəsindən təkbaşına gəlməsi çətindir. Amma Qarabağ nizamlanması məsələləri Rusiyanın vasitəçiliyi ilə müzakirə olunarsa və həll olunarsa, bu, təbii ki, başqa vəziyyətdir.

Putinin "Valday" forumundakı açıqlamasını gördük. O, açıq şəkildə bildirib ki, həm İlham Əliyev, həm də Nikol Paşinyan iradəli qərarlar verib və indiki siyasi situasiyadan yüksəyə çıxıblar. Moskva Ermənistan-Azərbaycan probleminin ritmini həmişə öz əlində saxlayıb. Rusiya verdiyi vədlərə əməl edərək regionu sülhə aparır.

İl ərzində Qarabağ nizamlanması ilə bağlı çoxlu təxribat xarakterli hallar olub. Bu baş verməməlidir, ancaq müharibələr bitəndə, münaqişəli ölkələr arasında münasibətlərdə müəyyənlik olmayanda belə hallar baş verir. Amma indi razılaşmalar imzalansa, qeyri-müəyyənlik bitəcək. Yekun razılaşma bütün təxribatları dayandırmalıdır. Qanunsuz erməni qruplarının təxribatlarını gördük. Və bu formasiyalar sülhə məcbur edilməlidir. Bu, yeni saziş üçün ilkin şərtlərdən biri olmalıdır. Ermənistan buna məcbur olacaq. Yeganə sual onun necə həyata keçiriləcəyidir. Amma qanunsuz birləşmələr Qarabağı tərk etməlidir.

Qarabağın statusuna gəldikdə, əslində, Ermənistanın bu separatçı birləşməni tanımasına kim mane oldu? Əgər bunu tanısalar, daha çox problemlərin olacağını başa düşdülər. Təbii ki, heç vaxt status olmayacaq. Belə olmasaydı, Əliyev heç bir müqavilə imzalamağa getməzdi. Aydın mövqe var: Qarabağ Azərbaycandır. Bu isə beynəlxalq hüquq baxımından konkret bir mövqedir.

Hesab edirəm ki, indiki şəraitdə erməni diasporuna böyük təzyiqlər edilib ki, Ermənistanın siyasi rəhbərliyinin fikri Rusiya Federasiyası rəhbərliyinin fikri ilə üst-üstə düşsün. Ermənistan çox zəif dövlətdir, heç nəyə nəzarət etmir. Ermənistanın dövlətçilik əldə etməsi üçün isə sülh yolu tutması lazımdır.

Bütün münaqişələrdə kimsə nəyisə pedallayırsa, nəsə baş verirsə, Rusiya ərazisində əziyyət çəkən diaspor nümayəndələridir. İndi Ermənistan növbəti müttəfiq axtarışına başlasa, Rusiyadakı diaspora zərər görəcək. Diasporda nə qədər qisas qışqırsa da, sonda belə bir mövqe ilə diaspor nümayəndələri yenə də əziyyət çəkəcək. Və mən hesab edirəm ki, indi Rusiyanın ən varlı erməniləri Moskvadan müəyyən siqnal alıblar ki, onlar qisas ideyalarında israr etməməlidirlər.

Əgər yeni saziş imzalansa, ABŞ və Fransa yenə də yekun Qarabağ tənzimlənməsindən kənarda qalacaq. Vaşinqton və Paris heç vaxt Qarabağ nizamlanmasının "taxtasına" düşə bilməyiblər. Vladimir Putin "Valday"da ATƏT-in Minsk Qrupu həmsədrlərinin işinin bərpa oluna biləcəyini deyib. Bu, Qərbə bir mesajdır, bu yaxşıdır, biz bu formatda prosesi bərpa edə bilərik... Amma... artıq hər şey qərarlaşıb.

Təbii ki, Rusiyanın vasitəçiliyi ilə yeni müqavilə olarsa, heç bir Minsk Qrupundan və prosesdə digər oyunçulardan söhbət gedə bilməz. Düşünürəm ki, Moskva da bunda maraqlı deyil. O, həm prosesi öz əlinə alıb, həm də Fransa və ABŞ-ın iştirakı olmadan özü sona çatdıracaq.

ABŞ və Fransa il boyu Qarabağın statusu məsələsini çox fəal şəkildə təbliğ edirlər. Amma bir daha məlum oldu ki, onların Azərbaycanla Ermənistan arasında vəziyyətə güclü təsir aləti yoxdur. Niyə? Bəli, onlar uzaqdadırlar. Rusiya Cənubi Qafqazda öz sülhməramlılarını yerləşdirib. ABŞ, Fransa regiona belə yaxın deyillər. Nəticədə regionda ən güclü oyunçu Moskvadır və mən başqa heç kimin bu qayığa tullana bilməsində təəccüblü heç nə görmürəm.

Yeri gəlmişkən, hətta İran indi geri çəkilir. Rusiyanın xarici işlər naziri Sergey Lavrov və iranlı həmkarı Hüseyn Əmir Abdullahyan arasında Moskvada keçirilən görüşdən sonra Azərbaycanla İran arasında gərginliyin azaldığı barədə məlumatların ortaya çıxdığını gördük. Burada nə deyə bilərəm, proseslərə Moskva təsir edir.

İl ərzində Qarabağ nizamlanmasında müşahidə etdiyimiz müxtəlif təxribatlara baxmayaraq, sülh gündəmi qalib gəlir. Tərəflərin başqa çıxış yolu yoxdur. İstənilən halda Moskvaya sərhədlərində gərginlik lazım deyil. Vəziyyəti sarsıdan digər tərəfdaşlarla kifayət qədər problemləri var.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
Səs
29 oktyabr
2021-ci il

# "Barselona" işdən qovduğu məşqçiyə 12 milyon avro ödəyəcək!



**"Barselona"nın istefaya göndərdiyi baş məşqçi Ronald Kumana nə qədər təzminat ödəyəcəyi müəyyənləşib. "El Pais"in yazdığınaə istinadən xəbər verir ki, Kataloniya təmsilçisi niderlandlı mütəxəssislə müqaviləni vaxtından ləğv etdiyinə görə, ona 12 milyon avro ödəyəcək.**

**Qeyd edək ki, Kuman La Liqanın 11-ci turunda "Rayo Valyekano"ya 0:1 hesablı məğlubiyyətdən sonra qovulub. O, 2020-ci ilin avqustundan Kataloniya klubunu çalışdırırdı.**

# Əhaliyə xəbərdarlıq: Hava şəraiti qeyri-sabit olacaq

Bakıda və Abşeron yarımadasında oktyabrın 29-u axşamdan 30-u gündüzədək, qısa fasilədən sonra 31-i axşamdan noyabrın 01-i səhərədək arabir yağış yağacağı gözlənilir. Bəzi yerlərdə intensivləşəcəyi ehtimalı var. Bu barədə Milli Hidrometeorologiya Xidməti Hidrometeoroloji Proqnozlar Bürosundan bildirilib.

Azərbaycanın rayonlarında oktyabrın 29-u axşamdan 30-u gündüzədək, qısa fasilədən sonra 31-i axşamdan noyabrın 01-i səhərədək ölkə ərazisində hava şəraitin qeyri sabit keçəcəyi, arabir yağış yağacağı gözlənilir. Bəzi yerlərdə leysan xarakterli intensiv olacağı, dağlıq rayonlarda qar yağacağı ehtimalı var. Çaylarda suluğun artacağı, Lənkəran-Astara bölgəsinin bəzi çaylarında qısamüddətli daşqın və sel keçəcəyi istisna olunmur.



# Hitler Covid-19-a qarşı "peyvənd olunubmuş"...



**Hollandiyada qərbə hadisə baş verib. SİA-ya daxil olan məlumata görə, bu ölkədə Adolf Hitlerin adına saxta, lakin portal sistemindən keçərli olan Covid-19 QR koduna (digital pasportuna) aid sənəd üzə çıxıb.**

Sözügedən halla bağlı müvafiq strukturlar araşdırmalara başlayarkən o da bəlli olub ki, bu işi həyata keçirən şəxs saxta QR kodları düzəldir və Adolf Hitlerin adına hazırladığı "pasportu" saxta yollarla Covid-19 pasportuna malik olmaq istəyən insanlara sübut kimi göstərir.

*Rövşən RƏSULOV*

# Çantaların qiymətləri 5-6 min dollara qalxdı



Fransız moda evi "Chanel"in çantaları status simvolu olaraq görülür. SİA xarici mətbuata istinadən xəbər verir ki, uzaq Şərqdə bəzi modellərin satışı məhdudlaşdırılıb. Cənubi Koreyada müştəri ildə yalnız "Klassik Flap Çanta" və "Coco Handle" modellərindən birini ala biləcək. Çantaların qiymətləri 5-6 min dollar arasındadır.

*Ayşən Vəli*

# Duz və şəkərli qidalar bu xəstəliklərə yol açır

**Duz və şəkər orqanizm üçün vacibdir, amma həmin məhsullardan çox istifadə etmək kifayət qədər ciddi xəstəliklərin başlanğıcı ola bilər. Həkimlər deyirlər ki, şəkəri və duzu tamamilə qida rasionundan çıxarmaq da mümkün deyil, çünki bu da zərərlidir. Lakin onu da qeyd edirlər ki, son illər piylənmənin iki dəfə artmasının bir səbəbi də şəkər və duzun normadan artıq qəbuludur.**



Bakıdakı 6 nömrəli poliklinikanın terapiya şöbəsinin müdiri Gülsarə Sadıqova AZƏRTAC-a deyib ki, duzlu qidaların həddindən çox qəbul edilməsi artrit, revmatizm, dermatit və ekzema kimi xəstəliklərin yaranmasına səbəb olur: "Duz bədənə daxil olanda su ilə birləşməyə meyil edir və özündə su saxlayır. Ona görə də duzlu qidalar yemək, duza meyilli olmaq və s. arterial qan təzyiqini yüksəltməyə meyillənir, bədəndə əlavə su saxladığına görə orqanizmdə maddələr mübadiləsinin sürətini aşağı salır. Ona görə də duzlu yeməkləri mümkün qədər məhdudlaşdırmaq lazımdır".

Əksər insanların sevimli qidası olan şirniyyatlar, kofe və şokolad mütəmadi şəkildə istifadə edildikdə isə tam həzm olunmur, qaraciyər piylənir, dişlər çürüyür. Lakin şəkər həm də serotonin hormonu üçün vacibdir: beyni inkişaf etdirir və fəaliyyəti artırır.

Həkim-diyetoloq Ləman Süleymanova deyib: "Şəkərdən artıq dərəcədə istifadə etmək yanlış seçimdir. Məsələn, 35 yaşdan sonra müəyyən genetik, xüsusilə şəkərli diabet kimi xəstəliklər müəyyən ağırlaşmalara səbəb olur. Şəkərə meyilli olanların axşam saat 6-7-dən sonra şəkəri menyudan çıxarmağı məsləhətdir. Məlumdur ki, meyvə-tərəvəzlər orqanizm üçün vacibdir, lakin qidadan sonra meyvə yeyilməsi onun tərkibindəki şəkəri ağırlaşdırır".

Diyetoloq, həmçinin müəyyən tip şirniyyatlardan uzaq durmağı tövsiyə edir: "Məsələn, genetik modifikasiya olunmuş müxtəlif qidalar və yaxud kortəbii şəkildə hazırlanan şirniyyatların tərkibində çox mənfi şəkər var və bunlar birbaşa insana genetik təsir göstərir. Hamilə qadının belə qidalarla qidalanması körpənin gələcək həyatına birbaşa təsir edir".

Mütəxəssislər deyirlər ki, istər duz, istərsə də şəkər axşam saatlarında qəbul edildikdə orqanizmə müəyyən zərərlər verə bilər. Ona görə də günün ikinci yarısında qidalanmaya xüsusi diqqət ayırmaq vacibdir.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**